RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 231 (9686) 20 oktyabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# COP29-a hazırlıq yekun mərhələsinə qədəm qoyur

## Respublikamızın COP Atəşkəsi Qlobal Təşəbbüsünə beynəlxalq səviyyədə böyük dəstək var

Qarşıdan COP29 gəlir. Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-un Azərbaycanda keçirilməsi barədə qərar respublikamızın böyük uğurudur. Eyni zamanda bu, Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu, Azərbaycana hörmətin əlamətidir: "COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün, həqiqətən, böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətin əlaməti hesab edirik".

Hazırda Azərbaycan COP29-a sürətlə hazırlaşır. Prezident İlham Əliyev bu istiqamətdə görülən işləri diqqət mərkəzində saxlayır. Dövlət başçısının oktyabrın 17-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanışlığı da bunu təsdiq edir. Həmin gün Prezident İlham Əliyev ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, COP29 məkanının enerji ehtiyaclarının "yaşıl enerji" mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər, iştirakçıların qeydiyyat prosesi və digər sahələrdə görülən işlərlə yaxından tanış olub.

COP29-un Azərbaycanda keçirilməsi həm də ölkəmizdə "yaşıl enerji" sahəsində görülən işlərin, respublikamızın qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə verdiyi töhfələrin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsidir. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

Prezident İlham Əliyevin 2021-ci ilin fevralında təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bu məsələlər öz əksini tapıb. Bundan irəli gələrək qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaq.

Son illərin mənzərəsi də ondan ibarətdir ki, respublikamızda "yaşıl texnologiyalar"ın tətbiqi genişləndirilir. Bu, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq işlərində, enerji istehsalında özünü daha yaxından göstərməkdədir. Prezident İlham Əliyev ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bərpaolunan enerjiyə keçidlə bağlı respublikamız ən mütərəqqi nümunələr yaradır. Əlbəttə, bütün bunlar beynəlxalq səviyyədə də izlənilir və yüksək dəyərləndirilir.

→ 3



# Azərbaycanı milli hədəflərə çatdıran Lider

2003-cü ildən 2024-cü illərə qədər dövrü ölkəmiz üçün ictimai-siyasi sahələrlə yanaşı, iqtisadi sahədə də yüksəliş və rifah dövrü hesab etmək olar. Bu dövrdə Azərbaycan dinamik iqtisadi inkişaf mərhələsinə qədəm qoyub. Belə ki, 2003-cü ildə neft gəlirləri hesabına Azərbaycan Dövlət Neft Fondunun aktivləri 815,6 milyon ABŞ dollar təşkil etdiyi halda, ötən 21 ildə bu rəqəm 71 dəfədən çox artaraq 58 milyard dollara yüksəlib. Fondun gəlirləri isə 2023-cü ilin sonuna 196,7 milyard dollara çatıb. 2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 310,4 milyard ABŞ dolları təşkil edib. Ölkə iqtisadiyyatına qoyulmuş birbaşa xarici investisiyaların həcmi isə 100,7 milyard ABŞ dollarından çox olub. Ötən dövr ərzində Azərbaycanda ümumdaxili məhsulun həcmi (ÜDM) 7,3 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb. Bu isə real ifadədə 3,6 dəfə artım deməkdir. Adambaşına düşən ÜDM isə 888,5 ABŞ dollarından 7 min 798 ABŞ dollarına yüksəlib.

→ 6

# Azərbaycan-Gürcüstan münasibətləri Cənubi Qafqazı cəlbedici regiona çevirib



Qərbin Azərbaycan və Gürcüstanı hədəf götürməsinin səbəbi bu ölkələrin öz milli maraqlarına uyğun siyasət aparmalarıdır. Gürcüstanın mövcud iqtidarı yaxşı bilir ki, vaxtilə Qərbin onlardan Rusiyaya qarşı istifadə etməyinin nəticəsində ölkə bu gün üç yerə parçalanıb. Ona görə də indiki hakimiyyət siyasi yolla ölkənin bütövlüyünü bərpa etmək istəyir. Amma bunun üçün ilk növbədə Gürcüstanın Rusiya ilə münasibətlərinin normallaşması gərəkdir. Həqiqətən, son dövrlər bu ölkələr arasında münasibətlərin normallaşması istiqamətində tərpənişlər hiss olunur. Bu isə Qərbin region üçün hazırladığı geosiyasi strategiyaya ziddir. Buna görə Qərb dairələri son vaxtlar açıq şəkildə Gürcüstanın daxili işlərinə qarışır. Məqsəd də mövcud iqtidarı hakimiyyətdən uzaqlaşdırmaq və onu özünə yaxın qüvvələrə təhvil verməkdir.

→ 6

# Erməni işğalçılarının qoyub getdikləri "mina tarlası"nda azərbaycanlı energetiklər günəş-elektrik stansiyası inşa edirlər

## Bu, fərqimizi ətraf mühitə münasibətdə də göstərir

İşğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi hədəfi çərçivəsində Kəlbəcərdə yeni tikilən "Yuxarı Vəng" Su-Elektrik Stansiyası Vətən müharibəsindəki Zəfərimizdən sonra regionda yaradılan ən böyük "yaşıl enerji" mənbəyidir. Təkcə bu SES-də istehsal edilən "yaşıl enerji" növbəti 5 il ərzində Kəlbəcər rayonunun elektrik enerjisinə yaranacaq tələbatını tam ödəyə biləcək. Ümumi gücü 40 meqavat olan "Kəlbəcər" SES silsiləsi Qarabağ və Şərqi Zəngəzurda 42 meqavatlıq "Zəngilan" SES silsiləsindən sonra tikilən ikinci analoji obyektdir. Sözügedən istiqamətdə atılan başqa addım isə ötən il 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasının (GES) istifadəyə verilməsidir. "Qaradağ" GES Xəzər regionunda və Qafqazda ən böyük günəş-elektrik stansiyasıdır.



→ 9

# Xarici ticarətin coğrafiyası genişlənir, çeşidi artır

## Azərbaycanın 172 ölkə ilə ticarət əlaqəsi var



Dünyada baş verən siyasi gərginliklər, mövcud beynəlxalq əhəmiyyətli marşrutlarda yaranan problemlər dünya ticarətinə mənfi təsir göstərməkdə davam edir. İki qütbə bölünmüş dünya güclərinin siyasi ambisiyalarından qaynaqlanan qarşılıqlı sanksiyalar da qlobal ticarətin dinamikasının aşağı düşməsini sürətləndirir.

Bir çox mütəxəssisin rəyinə görə, bəzən beynəlxalq ticarətdə artım kimi təqdim olunan rəqəmlər, əslində, qiymət artımı ilə bağlıdır. Məsələn, hüsilərin Qırmızı dənizdə ticarət gəmilərinə hücumu yük gəmiləri və tankerləri Avropaya mövcud marşrutu dəyişməklə Afrika qitəsini dolanmaqla üzməyə məcbur edir. Nəticədə daşınan malın hər tonunda qiymət 3-5 dollar bahalaşır ki, bu da real ticarətin artması ilə bağlı deyil.

Azərbaycan dövlətinin apardığı xarici iqtisadi siyasət isə bütün ölkələrlə bərabər hüquqlar çərçivəsində ticarət aparmağa imkan verir. Yəni ölkəmiz Ermənistan xaric bütün dövlətlərlə ticarət aparmaqla iqtisadi gücünə güc qatır. Azərbaycanın ticarət apardığı ölkələrin coğrafiyası da göstərir ki, bizim xarici ticarətdə heç bir problemimiz yoxdur.

→ 9

# Paşinyanın komandası parçalanır

## Deputatlar güc strukturlarına qarşı çıxırlar

Erməni sosioloqlar ölkədəki kriminogen vəziyyət və intiharların artması ilə bağlı həyəcan təbili çalırlar. Bildirilir ki, bu ilin 10 ayı ərzində onsuz da əhalisi az olan ölkədə 100-dən çox intihar hadisəsi baş verib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxdur. İntiharların kökündə dayanan yeganə səbəb isə yoxsulluq, sosial sahədə yaranan problemlərdir.



Ancaq hakimiyyəti sosial problemlər maraqlandırmır. Belə ki, baş nazir Nikol Paşinyan Ermənistanda hakimiyyətə Rusiyayönlü qüvvə və ya fiqurun gələcəyindən ehtiyat edərək, hələ də Qərbdən dəstək almağa çalışır. Amma hakim Vətəndaş Müqaviləsi Partiyasında N.Paşinyanın anti-Rusiya siyasəti ilə bağlı dərin, lakin səssiz fikir ayrılığı var və bu da təşkilatda parçalanmaya yol açır. "4rd.am" nəşri yazıb ki, partiyadaxili cəbhələşmə, bir-birinə qarşı kompromat toplama əməliyyatları getdikcə şiddətlənir. Bu günlərdə parlamentdə İstintaq Komitəsinin sədri Argişti Kyaramyan və deputat Ovik Ağazaryan arasında baş verən mübahisə də vəziyyətin nə dərəcədə ciddi olmasından xəbər verir. Qarşıdurmanı başladan tərəf hakim partiyanın nüfuzlu üzvü Andranik Koçaryandır. Ovik Ağazaryanı özündən çıxaran məsələ isə hüquq-mühafizə orqanları ilə partiyadaşları arasında bir müddətdir davam edən gizli savaşdır.

→ 6

# Azərbaycanın Müstəqilliyinin Bərpası Günü xarici ölkələrdə qeyd olunub

## Fransa

**Parisdə Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpasının 33-cü ildönümü konsert proqramı ilə qeyd edilib.**





AZƏRTAC xəbər verir ki, tədbirdə səfir Leyla Abdullayeva xalqımızın bu bayramı öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd etdiyini bildirib. Qeyd edib ki, müstəqilliyinin ilk illərində ağır günlərini yaşayan Azərbaycan xalqı qətiyyətli iradə nümayiş etdirərək gələcək taleyinə sahib çıxmağı bacardı.

Diplomat vurğulayıb ki, müstəqilliyin əvəzsiz nemət olduğunu və xalqın tarixi taleyində çox vacib rol oynadığını böyük qürur hissi ilə bəyan edən Ümummilli Lider Heydər Əliyevin müdrik xarici və daxili siyasəti Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində onun strateji kursunu uğurla davam etdirir. Azərbaycan yerləşdiyi regionda cərəyan edən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir ölkəyə çevrilib. Azərbaycan regionun lider dövlətidir. Ölkədə Şərq ruhu və Qərb modelinin, Şərq ənənələri və Qərb inkişafının ahəngdarlığı çox uğurlu şəkildə tarazlaşdırılıb.

Səfir qeyd edib ki, ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan bu gün sülh axtarışı yolundadır və bu yol asan deyil. Azərbaycan davamlı və möhkəm sülh istəyir. "Sülh yalnız müharibənin olmaması deyil. Sülh bir fəzilətdir, ruh halıdır, xeyirxahlığa meyil və ədalətə inamdır. Davamlı sülhə nail olmaq üçün bütün maneələr, hətta ən sonuncular da aradan qaldırılmalıdır", - deyə səfir vurğulayıb.

Azərbaycan səfiri müstəqilliyimizin bərpasının 33-cü ildönümünün xüsusi konsertlə qeyd olunduğunu deyərək, konsertdə səsləndiriləcək əsərlərin müəllifi Azərbaycan Respublikasının Xalq artisti, bəstəkar Oqtay Zülfüqarovun yaradıcılığı haqqında məlumat verib.

"Qəlbin telləri" adlı konsert proqramında Səidə Zülfüqarova (piano), Omo Bello (soprano), Giyom Martine (violonçel) və Sipryen Brod (skripka) bəstəkar Oqtay Zülfüqarovun əsərlərini səsləndiriblər.

Tədbirdə Parisdə akkreditasiya olmuş diplomatik korpusun nümayəndələri, Azərbaycanın Dostları Assosiasiyasının üzvləri, mədəniyyət və incəsənət, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.



## Türkiyə

**Azərbaycanla həmsərhəd olan Türkiyənin İğdır vilayətində Azərbaycanın Müstəqilliyinin Bərpası Günü və Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi münasibətilə təntənəli tədbir təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirin təşkilatçıları qismində Azərbaycanla Dil, Mədəni və Tarixi Birliyin Dəstəklənməsi və İnkişafı Cəmiyyəti ( İğdır Azərbaycan Evi) və Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı baş konsulluğu çıxış ediblər.

İğdır Mədəniyyət və Turizm İdarəsinin binasında keçirilən tədbirdə İğdır valisi Ercan Turan, vilayətin prokuroru Meriç Dede, Naxçıvan Mədəniyyət Nazirliyinin nümayəndə heyətinin başçısı Həsən Seyidov, Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı baş konsulu Asip Kaya, İğdır Azərbaycan Evinin rəhbəri Ziya Zakir Acar və başqa rəsmi şəxslər iştirak ediblər.

İğdır valisi Ercan Turan tədbir iştirakçılarına müraciət edərək Türkiyənin qurucusu və ilk Prezidenti Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" sözlərini xatırladıb. O, Azərbaycanın üçrəngli bayrağının qardaş ölkə xalqının yoluna işıq salaraq əbədi dalğalanacağına ümidvar olduğunu bildirib.

Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya iki ölkə arasında dostluq əlaqələrinin inkişafına diqqət çəkib. "Əminəm ki, Azərbaycan vətəndaşlarının Türkiyəyə olan sevgisi kimi, Türkiyə xalqının da Azərbaycana sevgisi var. Bunun bariz sübutu 2023-cü ilin fevralında baş verən zəlzələlər zamanı göstərilən dəstək və həmrəylikdir", - deyən diplomat bildirib ki, Naxçıvandan təbii fəlakət zonasına birbaşa 52 yük maşını humanitar yardım göndərilib.

Daha sonra çıxış edən Naxçıvan Mədəniyyət Nazirliyinin nümayəndə heyətinin rəhbəri Həsən Seyidov iki qardaş ölkə arasında mədəniyyət sahəsində fəal qarşılıqlı fəaliyyətdən danışıb. "Azərbaycan və Türkiyə liderləri bütün dünyaya qardaşlıq və dostluq nümunəsi göstərirlər", - deyən H.Seyidov "Bir millət, iki dövlət" kəlamına əsaslanan əməkdaşlığın sarsılmaz olduğunu vurğulayıb.

Sonra Naxçıvan Dövlət Filarmoniyası solistlərinin və rəqs qrupunun iştirakı ilə konsert proqramı təqdim olunub.

## İsveçrə

**BMT-nin İsveçrənin Cenevrə şəhərindəki bölməsi yanında ölkəmizin daimi nümayəndəliyi tərəfindən tanınmış azərbaycanlı tədqiqatçı və mədəniyyətşünas Fuad Axundovun Azərbaycan mədəni irsinin XIX-XX əsrlərdə təkamülünə həsr olunmuş təqdimatı təşkil edilib. AZƏRTAC xəbər verir ki, BMT-nin Cenevrə bölməsində təşkil olunmuş tədbirin açılışında səfir Qalib İsrafilov Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 33-cü ildönümünə həsr edilmiş nitqlə çıxış dib.**





Çıxışda Azərbaycanın müstəqil siyasətinin regionda sabitliyin və inkişafın təşviqinə yönəldiyini, 2020-ci il İkinci Qarabağ müharibəsi və 2023-cü ildə baş tutmuş lokal antiterror tədbirləri sonrası ölkəmizin genişmiqyaslı yenidənqurma və bərpa işlərini həyata keçirdiyini bildirib. Azərbaycanın müstəqil dövlətçilik tarixinin 33 il olmasına baxmayaraq, xalqımızın qədim və zəngin tarixi və mədəni irsə malik olduğu vurğulanıb. Bu irsin təkamülünə Çar Rusiya İmperiyası tərəfindən işğal edilmiş Azərbaycanın İrəvan, Qarabağ, Bakı, Gəncə, Naxçıvan, Quba, Şamaxı və digər xanlıqlarında yaşamış məşhur azərbaycanlıların töhfə verdiyi bildirilib.

Ölkəmizin üçüncü Respublika dövrünü yaşaması və müstəqil siyasət yürütməsinin XIX-XX əsr tarixinin qaranlıq səhifələrinə işıq tutmağa imkan verdiyi və azərbaycançılıq məfkurəsinə töhfə vermiş insanların, xüsusilə İrəvan xanlığından olan şəxslərin töhfəsi barədə həqiqəti üzə çıxarmağa şərait yaratdığı qeyd edilib.

Çıxışın davamında səfir Q.İsrafilov beynəlxalq ictimaiyyətə bu həqiqətlərin çatdırılmasının və bəşəriyyətə mənsub olan itirilmiş irs barəsində məlumatların paylaşılmasının vacibliyini qeyd edib. Bu xüsusda Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olması və münasibətlərin normallaşması məqsədilə aparılan səylərin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin və keçmiş İrəvan xanlığından, hazırkı Ermənistan respublikasından qovulmuş 100 minlərlə azərbaycanlının öz doğma vətəninə qayıdış hüququnun bərpa edilməsinin zəruri olduğu bildirilib.

Sonra Fuad Axundov İrəvanın son iki əsr ərzində keçdiyi və onun demoqrafiyası, görünüşü və arxitekturasına təsir etmiş transformasiyalar barədə, o cümlədən İrəvan xanlığının tarixi və görkəmli şəxsiyyətləri ilə bağlı təfərrüatlı məlumatla bölüşüb və müvafiq təqdimat qonaqların diqqətinə çatdırılıb. Təqdimat əsnasında təəssüf hissilə qeyd edilib ki, bu mədəni və tarixi irsin əksər hissələri itirilib və onun barədə yalnız tarixi mənbələrdə, muzeylərdə saxlanılan artefaktlar əsasında təəssürat formalaşdırmaq mümkündür. Buna baxmayaraq, həmin irs bu torpaqlarda yaşamış və hazırda qaçqın statusunda olan azərbaycanlıların qayıdışı üçün əsas diqqətəlayiq faktordur.

Tədbirdə BMT-nin Cenevrə bölməsi yanında akkreditə olunmuş müxtəlif ölkələrin daimi nümayəndəliklərinin rəhbərləri və əməkdaşları, eləcə də Cenevrədə fəaliyyət göstərən beynəlxalq təşkilatların rəhbərləri, diaspora, QHT və elmi dairələrin nümayəndələri iştirak ediblər.

Tədbir zamanı ölkəmizin tarixi və mədəni irsini əks etdirən nəşr və kitablar qonaqlara təqdim edilib. Tədbirin sonunda qonaqlar üçün ziyafət təşkil olunub.

# MSK-nın nümayəndə heyəti Moldovada konstitusion referendumu və prezident seçkilərini müşahidə edəcək

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nümayəndə heyəti oktyabrın 20-də Moldova Respublikasında keçiriləcək konstitusion referendumu və prezident seçkilərini müşahidə etmək məqsədilə Kişineuya səfərə yola düşüb.**



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Moldova Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədrinə ünvanladığı dəvətə əsasən Moldovada sözügedən referendum və seçkilərin müşahidəsində Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımov və Katibliyin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəşid Yusifbəyli iştirak edirlər.

Səfər çərçivəsində Mərkəzi Seçki Komissiyası nümayəndələrinin Moldova Mərkəzi Seçki Komissiyasının sədri Anjelika Karaman və digər rəsmi şəxslərlə görüşlər keçirməsi, qurumlararası əlaqələrin və seçkilərlə bağlı müxtəlif sahələrdə təcrübə mübadiləsinin genişləndirilməsi imkanları istiqamətində müzakirələr aparılması da nəzərdə tutulur.

Nümayəndə heyəti konstitusion referendum və prezident seçkilərinə ümumi hazırlıq prosesləri ilə tanış olmaqla yanaşı, seçki günü paytaxtdakı məntəqələrdə səsvermə prosedurlarını da izləyəcəklər.

# *Hulusi KILIÇ:* "Azərbaycan güclü iqtisadiyyata və qüdrətli orduya malik dövlətdir"

**"Azərbaycanın müstəqilliyinin bərpasından ötən 33 il ərzində respublika özünü beynəlxalq münasibətlərin nüfuzlu iştirakçısı, inkişaf etmiş, güclü iqtisadiyyatı və qüdrətli ordusu olan dövlət kimi təsdiq edərək, həqiqətən də, tarixi nailiyyətlər əldə edib".**




Bu sözləri Türkiyənin Azərbaycandakı sabiq səfiri, "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyədəki nümayəndəsi Hulusi Kılıç AZƏRTAC-a deyib.

Onun sözlərinə görə, müasir Azərbaycanın uğurlarının təməlində güclü lider, düşünülmüş siyasət, qüdrətli ordu, inkişaf etmiş iqtisadiyyat və ən əsası, öz Prezidentinin ətrafında birləşmiş xalq kimi mühüm amillər dayanır.

Agentliyin həmsöhbəti Ümummilli Lider Heydər Əliyevin Bakıya qayıdışını Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində baş verən taleyüklü hadisə adlandırıb. O qeyd edib ki, müasir Azərbaycanın uğurlarının əsası məhz dahi siyasətçinin hakimiyyəti illərində qoyulub və onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən daha da möhkəmləndirilib.

Ümummilli Liderin siyasətinin prioritetlərindən birinin də Azərbaycanın iqtisadi inkişafı olduğunu diqqətə çatdıran Hulusi Kılıç vurğulayıb: "Heydər Əliyev regionda real vəziyyətlə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdıra, Ermənistanın təcavüzünün nəticələri, Azərbaycan torpaqlarının işğalı, bir milyondan artıq qaçqın və məcburi köçkünün problemləri haqqında aydın təsəvvür formalaşdıra bilirdi. Bir çox uğurlu islahatlar və transformasiyalar müasir Azərbaycan dövlətçiliyinin banisinin adı ilə bağlıdır".

H.Kılıç bildirib ki, Heydər Əliyevin vəsiyyətləri Azərbaycanda yüksək inkişaf tempinə nail olan Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən mərhələ-mərhələ həyata keçirilib və bu, həm də işğalçıları respublikanın tarixi torpaqlarından qovan qüdrətli ordunun yaradılmasına imkan verib.

Sabiq səfir Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsini bütün türk dünyasının tarixində mühüm səhifə kimi dəyərləndirib.

H.Kılıç 106 il əvvəl Şərqdə ilk demokratik dövləti elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini də yad edib.

# *Ferqus AULD:* "Azərbaycan son 33 ildə bir dövlət kimi böyük inkişafa nail olub"



**Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Auld xalqımızı Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib.**

AZƏRTAC xəbər verir ki, bu barədə diplomat özünün "X" sosial şəbəkəsindəki səhifəsində yazıb. O, Azərbaycan xalqını bu möhtəşəm bayram münasibətilə təbrik edib: "1991-ci ilin 18 oktyabrında Azərbaycan öz müstəqilliyini bərpa etdi. Son 33 ildə Azərbaycan bir dövlət kimi böyük inkişafa nail olmuşdur. Bu möhtəşəm bayram münasibətilə hamınızı təbrik edirəm",- deyə səfir qeyd edib.

# Azərbaycanın Özbəkistandakı hərbi attaşelik aparatının təşkilatçılığı ilə tədbir keçirilib





**Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı hərbi attaşelik aparatının təşkilatçılığı ilə Daşkənd şəhərində yerləşən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində tədbir keçirilib.**



AZƏRTAC-ın xəbərinə görə, tədbirdə Azərbaycan, ABŞ, Almaniya, Belarus, İtaliya, Koreya, Polşa, Rusiya, Türkiyə və Türkmənistan hərbi attaşelik aparatının nümayəndələri iştirak ediblər.

Qonaqlara mərkəzlə bağlı ətraflı məlumat verildikdən sonra burada fəaliyyət göstərən muzeylərə ekskursiya təşkil edilib. Nümayəndə heyəti muzeylərdə nümayiş etdirilən fotoşəkillər və tarixi eksponatlarla tanış olub. Sonda mərkəzin mahnı və rəqs ansamblının ifasında musiqi nömrələri təqdim edilib.

# Beynəlxalq Xizək Alpinizmi Federasiyasının prezidenti Azərbaycana təşəkkür edib

**"Azərbaycanda keçirilən assambleyada iştirak etmək bizim üçün böyük şərəf oldu. Xalqınız çox qonaqpərvərdir, burada mehribanlıqla qarşılandıq. Azərbaycanın mədəniyyəti zəngin, mətbəxi isə heyrətamizdir - hər yemək bizim üçün unudulmaz təcrübə idi".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Beynəlxalq Xizək Alpinizmi Federasiyasının prezidenti Requla Meyer qurumun Azərbaycanda keçirilən ilk Plenar Assambleyası barədə danışarkən deyib.

O, tədbirin uğurlu təşkilinin və Azərbaycanla tərəfdaşlıqlarının peşəkar səviyyədə olmasının sevindirici hal olduğunu bildirib: "Gələcəkdə birgə layihələri davam etdirmək imkanlarını səbirsizliklə gözləyirik. Beynəlxalq Xizək Alpinizmi Federasiyası adından bu unudulmaz təcrübəyə görə Azərbaycana təşəkkür edirik".

Qeyd edək ki, Beynəlxalq Xizək Alpinizmi Federasiyasının Bakıda keçirilən 17-ci Plenar Assambleyasında 24 ölkədən 60-a yaxın nümayəndə iştirak edir.










# COP29-a hazırlıq yekun mərhələsinə qədəm qoyur

## Respublikamızın COP Atəşkəsi Qlobal Təşəbbüsünə beynəlxalq səviyyədə böyük dəstək var

**Cəmi bir neçə həftədən sonra respublikamız mötəbər beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub və bu, ölkəmizə göstərilən beynəlxalq etimadın növbəti nümunəsidir.**

### Bakıda keçirilən tədbirlər sülhə, mədəniyyətlər və sivilizasiyalararası dialoqa xidmət edir

Öncə onu qeyd edək ki, Bakı artıq uzun illərdir mötəbər tədbirlərin keçirildiyi mərkəzlərdən birinə çevrilib. Son onillikdə paytaxtımız müxtəlif məzmunlu saysız-hesabsız beynəlxalq tədbirlərə evsahibliyi edib. Xüsusilə qeyd edilməlidir ki, belə tədbirlərin bir qismi ənənə halını alıb və onlara qlobal səviyyədə olduqca böyük maraq var. Buna misal olaraq Qlobal Bakı Forumunu nümunə göstərə bilərik. Onu da vurğulamalıyıq ki, Bakının evsahibliyi etdiyi tədbirlər sülhə, təhlükəsizliyə, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişafına xidmət edir.

Eyni zamanda Azərbaycanda ən böyük beynəlxalq tədbirlərin keçirilməsi sahəsində böyük təcrübə var. Belə ki, hələ 2012-ci ildə respublikamızda "Avroviziya" Musiqi Yarışması, 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları kimi geniş iştirakçı və tamaşaçı tutumuna malik tədbirlər keçirilib. Bu tədbirlərin hər birində Azərbaycan təşkilatçılığın ən gözəl nümunələrini yaradıb.

Qarşıdan isə COP29 gəlir. Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-un Azərbaycanda keçirilməsi barədə qərar respublikamızın böyük uğurudur. Eyni zamanda bu, Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu, Azərbaycana hörmətin əlamətidir: "COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətin əlaməti hesab edirik".

Hazırda Azərbaycan COP29-a sürətlə hazırlaşır. Prezident İlham Əliyev bu istiqamətdə görülən işləri diqqət mərkəzində saxlayır. Dövlət başçısının oktyabrın 17-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanışlığı da bunu təsdiq edir. Həmin gün Prezident İlham Əliyev ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, COP29 məkanının enerji ehtiyaclarının "yaşıl enerji" mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər, iştirakçıların qeydiyyat prosesi və digər sahələrdə görülən işlərlə yaxından tanış olub.

### İqlim dəyişmələrinə qarşı mübarizədə Azərbaycan nümunəsi

COP29-un Azərbaycanda keçirilməsi həm də ölkəmizdə "yaşıl enerji" sahəsində görülən işlərin, respublikamızın qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə verdiyi töhfələrin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsidir. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

Prezident İlham Əliyevin 2021-ci ilin fevralında təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bu məsələlər öz əksini tapıb. Bundan irəli gələrək, qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaq.

Son illərin mənzərəsi də ondan ibarətdir ki, respublikamızda "yaşıl texnologiyalar"ın tətbiqi genişləndirilir. Bu, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq işlərində, enerji istehsalında özünü daha yaxından göstərməkdədir. Prezident İlham Əliyev ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bərpaolunan enerjiyə keçidlə bağlı respublikamız ən mütərəqqi nümunələr yaradır. Əlbəttə, bütün bunlar beynəlxalq səviyyədə də izlənilir və yüksək dəyərləndirilir.

### Azərbaycan Olimpiya Oyunlarında olduğu kimi, hərbi əməliyyatları dayandırmağa çağırır

Ümumiyyətlə, COP29 qlobal iqlim dəyişmələrinə qarşı mübarizə ilə bağlı mühüm qərarların qəbulu ilə əlamətdar olacaq. COP29-da qəbul edilməli olan təxminən 60 qərar var. Onlardan ikisi xüsusilə vacibdir. Bunlardan biri iqlim maliyyəsi, digəri karbon bazarlarının formalaşdırılması və tənzimlənən karbon bazarları ilə bağlıdır. Bu da Paris Sazişinin 6-cı maddəsi ilə əlaqədardır. Həmin iki qərarın qəbul edilməsi COP prosesi çərçivəsində tarixi nailiyyət hesab olunacaq.

Eyni zamanda Azərbaycan COP29-un sədri qismində bir sıra təhəbbüslərlə çıxış edir. Bunlardan biri Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən COP Atəşkəsi Qlobal Təşəbbüsüdür. Azərbaycan bu təşəbbüsü ilə Olimpiya Oyunlarında olduğu kimi, COP29 tədbiri keçirildiyi müddətdə də dünyada davam edən münaqişələrin tərəflərini hərbi əməliyyatları dayandırmaqla atəşkəsə dəvət edir.

Qeyd edək ki, ilk dəfədir COP-lar tarixində hərbi fəaliyyətin iqlimə zərər vuran, emissiya yaradan bir fəaliyyət kimi təsbit olunması və buna görə də qlobal atəşkəsin elan olunması barədə qərara gəlinib və belə təşəbbüs irəli sürülüb. Bütün dünya üçün aktual olan bu təşəbbüsə 127 dövlətin, 1100-dən artıq beynəlxalq, qeyri-hökumət təşkilatının, tanınmış şəxslərin, dini liderlərin qoşulması onun əhəmiyyətinin göstəricisidir.

Beləliklə, iqlim dəyişmələrinə qarşı mübarizədə mütərəqqi nümunələr yaradan Azərbaycan həm də dünyanı atəşkəsə dəvət edir. Bu çağırışa isə beynəlxalq səviyyədə böyük dəstək var.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Naxçıvanda "yaşıl enerji" üçün 8 min hektara yaxın ərazi ayrılıb



**Naxçıvanda "yaşıl mənbə"lərə mediatur çərçivəsində jurnalistlər Naxçıvan Günəş-Elektrik Stansiyasının işi ilə də tanış olublar.**

Səfər çərçivəsində stansiyanın potensialı barədə jurnalistlərə məlumat verilib. Stansiyanın direktoru Fərid Səfərov bildirib ki, Naxçıvanda ilk dəfə 2015-ci ildə 22 meqavat gücündə "Xalxal" Günəş-Elektrik Stansiyası tikilib. O qeyd edib ki, bu stansiya 230 meqavat gücündə Qaradağ Günəş-Elektrik Stansiyasından sonra generasiya gücünə görə Cənubi Qafqazda və ölkədə ikinci ən böyük GES-dir: "İl ərzində bu stansiyada 33 milyon kilovat-saat enerji istehsal olunur. Stansiya alternativ və bərpaolunan enerji mənbələrində istehsal gücünün 20 faizini təşkil edir. Ayrılmış 56 hektar sahənin 36 hektarında 86383 ədəd günəş paneli quraşdırılaraq istismara verilib".

Direktor xatırladıb ki, hazırda Naxçıvanda 4 - Xalxal GES, Şərur GES, Kəngərli GES və Culfa Külək-Günəş Hibrid Elektrik stansiyaları fəaliyyət göstərir.

Daha sonra stansiyanın idarəetmə otağında panellərin iş prinsipi barədə məlumat verilib. Naxçıvanın "yaşıl




enerji" potensialından danışan Energetika Xidmətinin mətbuat katibi Mətin Abbaslı bildirib ki, muxtar respublikada "yaşıl enerji"nin layihələndirilməsi üçün 8 min hektara yaxın ərazi ayrılıb. O qeyd edib ki, Naxçıvanın Arazboyu düzənliklərində günəşli saatların illik miqdarı 2600-2800 saat/il, günəş ra-



diasiyasının illik miqdarı 148-150 kkal/sm$^2$, yüksək dağlıq zonada isə artaraq 152-160 kkal/sm$^2$ arasında dəyişir. Muxtar respublikada mövcud günəş-elektrik stansiyalarında illik hesablamalara əsasən, günəş radiasiyasının miqdarının 138-140 kkal/sm$^2$/il arasında olduğu təsdiq edilib. Dövlət proqramına əsasən, "yaşıl enerji" istehsalı üçün 7992 ha ərazi ayrılıb. Artıq investisiya prosesi başlayıb. Yerli və xarici şirkətlərlə memorandum imzalanıb.

M.Abbaslı bildirib ki, hazırda bir neçə layihə üzrə "Texniki-iqtisadi əsaslandırma"lar təhlil edilir. "Stansiyaların tikinti prosesinin başlanmasına çox yaxınlaşmışıq", - deyə mətbuat katibi əlavə edib.

Bununla jurnalistlərin "yaşıl enerji zonası" elan olunan Naxçıvanın alternativ enerji mənbələrinə mediaturu yekunlaşıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bölgələrdə ağacəkmə aksiyasına start verilib





### Şirvan

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Şirvan şəhərində də ağacəkmə aksiyasına start verilib. Aksiya çərçivəsində 10 min ədəd müxtəlif növ ağac, dekorativ gül və kol əkiləcək. Aksiya şəhərin müxtəlif ərazilərini əhatə etməklə 10 gün davam edəcək. Aksiyanın ilk günündə Heydər Əliyev prospekti boyunca yol kənarlarında, Məhəmməd Füzuli adına Mədəniyyət və İstirahət Parkında ağaclar əkilib.

Aksiya zamanı 1000-ə yaxın şam və sərv ağacı əkilərək suvarılıb, ərazidə təmizlik və abadlıq işləri aparılıb.

### Göyçay

Rayonda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar ağacəkmə aksiyası təşkil olunub.

Ağacəkmə aksiyası zamanı Bakı-Şamaxı-Yevlax avtomobil yolunun rayonun Göyçay şəhər, Qaraməryəm, Bığır və İkinci Ərəbcəbirli kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin ərazilərindən keçən hissəsində təmizlik işləri aparılaraq oleyandr, akasiya, qarağac, küknar ağacları və gül kolları olmaqla, ümumilikdə, bu günədək 3000 ədəd ağac əkilib.

Yeni əkilən ağaclara aqrotexniki qulluq göstərilməsi, onların qorunması və suvarılması ilə bağlı təşkilati və texniki tədbirlər görülür.

Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kənarlarına, ümumilikdə, 10 min ədəd müxtəlif növ ağac və gül kolunun əkilməsi nəzərdə tutulur.




### Neftçala

Rayon ərazisindəki magistral avtomobil yollarının kənarlarında ağacəkmə aksiyalarının keçirilməsinə start verilib.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən növbəti aksiyada Ələt-Astara magistral avtomobil yolunun kənarında 1200-dən çox müxtəlif növ ağac əkilib, aqrotexniki qulluq göstərilib.

Payız mövsümündə rayon ərazisində yaşıllıqların artırılması məqsədilə 10 min ağacın əkilməsi nəzərdə tutulur.

*AZƏRTAC*




# *Misirli ekspert:* "Qarabağ əraziləri "yaşıl enerji" regionuna çevrilmək üçün böyük potensiala malikdir"



**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ölkənin "yaşıl enerji"yə keçidində, eləcə də bərpaolunan enerjinin inkişafı məqsədlərinə nail olunmasında mühüm rol oynayacaq. Şübhəsiz ki, bu beynəlxalq konfransda "yaşıl enerji"yə qlobal keçidlə bağlı mühüm qərarlar qəbul ediləcək. Azərbaycan gələcəkdə ölkənin iqtisadi inkişafına dəstək olacaq "yaşıl enerji"nin Avropaya ixracı ilə bağlı layihənin həyata keçirilməsi üçün əhəmiyyətli tərəfdaşlar cəlb edə biləcək. Nəzərə alsaq ki, Azərbaycanın alternativ enerji mənbələri üçün çox böyük potensialı var, belə mühüm layihələrin həyata keçirilməsi istiqamətində beynəlxalq maliyyə kanallarının açılması "yaşıl enerji"nin yeni dövrünün başlanğıcı olacaq.**

**Mövzu ilə bağlı AZƏRTAC-ın suallarını misirli ekspert, Mərkəzi Asiya və Qafqaz üzrə tədqiqatçı Əhməd Abdah Tarabeyk cavablandırır.**

*- Sizcə, Azərbaycanda keçiriləcək COP29 qlobal iqlim konfransının əsas məqsədləri nədən ibarətdir və bu məqsədlərə nail olmaq üçün hansı prioritetlər qarşıya qoyulacaq? Bu konfransdan gözləntiləriniz nədir?*

- Katibliyi Almaniyanın Bonn şəhərində yerləşən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı ən yüksək qərar qəbul edən orqandır. 1995-ci ildən Berlində bu tədbirin ilk sessiyasının keçirildiyi vaxtdan dünyanın müxtəlif ölkələrindən hökumət nümayəndələri iqlim dəyişikliyinin qarşısının alınması və onun zərərli təsirlərinin aradan qaldırılması üçün səyləri birləşdirmək üçün hər il konfransa toplaşırlar.

Coğrafi mövqeyi və böyük iqlim fəallığı ilə Azərbaycan qlobal iqlim konfransının səylərini gücləndirəcək. Dünya ölkələri yeni maliyyələşdirmə məqsədinə çatmaqda çətinliklərlə üzləşdiyi bir vaxtda Azərbaycan nail olacağına ümid etdiyi konkret planlar qoyub. Bu, iqlim dəyişikliyinə uyğunlaşmaq üçün daha çox investisiya tələblərinin artması fonunda baş verir. Qarşıdan gələn sammitin əsas məqsədi yoxsul ölkələrə iqlim dəyişikliyi ilə mübarizədə kömək etmək üçün zəngin ölkələr tərəfindən ödənilən yeni illik maliyyə hədəfi üzrə razılığa gəlməkdir. İnkişaf etməkdə olan ölkələr əlavə maliyyə dəstəyi olmadan emissiyaların azaldılması hədəflərini yüksəldə bilməzlər.

Mən Azərbaycanın təqdim etdiyi təşəbbüslər üzrə ölkələr arasında konsensusa nail olacağını gözləyirəm. Üstəlik, Azərbaycan 2050-ci ilə qədər "yaşıl enerjiyə" keçid üçün əməli addımlara başlayan neft ölkələrindən biridir və ona görə də bu məsələdə neft ölkələri üçün model hesab olunur. Bakı işğaldan azad edilmiş Qarabağ ərazilərində "yaşıl enerjiyə" keçidi həyata keçirməyə başlayıb. Azərbaycan iqlim dəyişikliyi ilə bağlı fəlakətlər fonunda həyata keçirilə biləcək iddialı təşəbbüslər irəli sürüb və bu, planeti xilas etmək üçün bütün ölkələrdən əməkdaşlıq etməyi tələb edir.

*- Qlobal səviyyədə "yaşıl transformasiya" mümkündürmü? Bu transformasiya üçün hansı perspektivlər var və ölkələr hansı problemlərlə üzləşəcək?*

- İqlim problemi qlobal problemdir və onun həlli qlobal olmalıdır. Bu isə o deməkdir ki, bütün ölkələr kompleks həll yollarını hazırlamaq üçün birgə çalışmalıdırlar. Buna görə də yüksək səviyyədə karbon qazı istehsalına səbəb olan sənayeləşmiş ölkələr inkişaf etməkdə olan ölkələrin "yaşıl iqtisadiyyat"a keçidinə kömək etməlidirlər. Ona görə də iqlim dəyişikliyi məsələsinə böyük diqqət yetirilməlidir. Sənayeləşmiş ölkələr istər texniki töhfələr, istərsə də iqtisadi töhfələr vasitəsilə "yaşıl transformasiya" prosesinə ən çox töhfə verməlidilər. Bu, ən böyük problemdir. Çünki sənayeləşmiş ölkələr sənaye sahəsində "yaşıl texnologiya"lardan istifadə etmək istəmirlər. Onlar inkişaf etməkdə olan ölkələrin, xüsusən də neft ölkələrinin qalıq yanacaq istehsalını dayandırmasını istəyirlər.

*- Azərbaycanı bərpaolunan enerjiyə investisiya üçün perspektivli bazar hesab edirsinizmi?*

- Azərbaycanı bərpaolunan enerji sahəsində investisiyalar üçün perspektivli bazar kimi xarakterizə edən bir çox amillər və elementlər var. Azərbaycanın hündür dağları var ki, bu dağlardan keçən çaylardan su elektrik enerjisi əldə etmək olar. Həm də ölkə bu dağlarda quraşdırıla bilən külək dəyirmanlarının köməyi ilə külək enerjisindən elektrik enerjisi istehsal edə bilər. Azərbaycanda da ilin əksər hissəsində günəş işığı üstünlük təşkil edir ki, bu da ona günəş panelləri vasitəsilə günəş enerjisi əldə etməkdə böyük köməklik göstərir. Bundan əlavə, ölkə "yaşıl hidrogen"in istehsal oluna biləcəyi sıx meşələrə sahib olması ilə məşhurdur. Azərbaycanın "yaşıl enerji" sahəsində malik olduğu belə amillər onu bu mühüm sahəyə investisiyalar üçün cəlbedici mərkəzə çevirir. Azərbaycan "yaşıl enerji" istehsalı sahəsində müasir texnologiyalara malik ölkələrlə əməkdaşlıq edə bilər. Çünki "yaşıl enerji"yə keçiddə Azərbaycanla səmərəli əməkdaşlığa nail ola biləcək dövlətlərin başında ABŞ, Çin və Avropa Birliyi dayanır.

*- Azərbaycan neft və təbii qaz ixrac etməklə yanaşı, bərpaolunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisini də ixrac edən ölkəyə çevrilməyi planlaşdırır. Ölkəmizin bu istiqamətdə imkanlarını necə qiymətləndirirsiniz?*

- Ötən il Birləşmiş Ərəb Əmirliklərində keçirilən COP28-də kömür, neft və təbii qaz kimi mədən yanacaqları məsələsi qaldırıldı. COP28-də bəzi ölkələr qalıq yanacaq istehsalının dayandırılmasını tələb etdilər. Məhz sənayeləşmiş ölkələr sahib olduqları çirkləndirici fabriklərdən yaranan böyük emissiyaları ört-basdır etmək üçün bu məsələni qaldırıblar. Lakin bu məsələyə iki aspektdən baxılıb. Birincisi, dünya ölkələri, o cümlədən sənayeləşmiş ölkələr ən azı 2050-ci ilə qədər mədən yanacaqları, xüsusilə də neft və təbii qaz olmadan fəaliyyət göstərə bilməyəcəklər. İkincisi, sənayeləşmiş ölkələrin qaz emissiyaları neft və təbii qaz hasil edən ölkələrin emissiyalarını xeyli üstələyir.

Azərbaycan neft ölkəsi olsa da, onun tədricən təmiz enerji istehsalına keçidlə bağlı konkret planları var. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası vasitəsilə iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal proqramlara qoşulub. Ölkə 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35 faiz azaltmağı hədəfləyir. Daha iddialı bir məqsəd də qarşıya qoyulub - 2050-ci ilə qədər istixana qazları emissiyalarını 40 faiz azaltmaq. Azərbaycan özünün böyük iqtisadi və texniki imkanları sayəsində mövcud qrafikinə uyğun olaraq bu planları həyata keçirə biləcək.

*- Sizcə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin "yaşıl enerji" zonasına çevrilməsi üçün hansı imkanlar var?*

- Azərbaycanın işğaldan azad edilmiş Qarabağ əraziləri bir sıra səbəblərdən "yaşıl enerji" regionuna çevrilmək üçün böyük potensiala malikdir. Bunlardan ən mühümü odur ki, Qarabağ "yaşıl enerji"yə keçidlə bağlı qlobal tendensiyalara uyğun müasir şəkildə bərpa olunur və yenidən qurulur. Qarabağın hündür təpələri və dağları var ki, bu dağların yamacları boyunca axan çaylar vasitəsilə təmiz elektrik enerjisi əldə etmək olar və bu dağlardan külək dəyirmanları vasitəsilə külək enerjisindən elektrik enerjisi istehsal etmək də mümkündür.

İşğaldan azad edilmiş Qarabağda həm də havanın təmizlənməsinə və bu ekoloji zonalardan enerji hasil edilməsinə xidmət edən geniş meşə sahələri var. Ona görə də Qarabağ Azərbaycanın ən mühüm ərazilərindən biridir, "yaşıl enerji" regionuna və bununla da beynəlxalq sistemə görə ekoloji cəhətdən təmiz regiona çevrilə bilər. Prezident İlham Əliyev işğaldan azad edilmiş Qarabağ ərazilərinin "yaşıl enerji" zonasına çevrildiyini bəyan edib. 2050-ci ilə qədər bu ərazilərin "sıfır xalis emissiya" zonasına çevrilməsi planlaşdırılır.

# COP29 Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçidinin dəstəklənməsi baxımından faydalı olacaq



**"COP29 Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçidinin dəstəklənməsi, eyni zamanda xarici investisiyalar üçün cəlbedici ölkə olduğunu göstərməklə iqtisadi baxımdan son dərəcə faydalı olacaq. Digər tərəfdən, bu tədbir "yaşıl keçid" çərçivəsində yeni layihələrin maliyyələşməsi üçün beynəlxalq maliyyə institutları ilə sıx əlaqələrin yaradılmasına, ölkəmizə qabaqcıl texnologiyaların transferinin reallaşmasına və xarici investisiya ilə yeni istehsal müəssisələrinin qurulmasına təkan verəcək".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Beynəlxalq Dialoq və İnkişaf Alyansının prezidenti, tarix elmləri üzrə fəlsəfə doktoru Nüşabə Məmmədova səsləndirib.

COP29-un Azərbaycanda keçirilməsinin iqtisadi dividendlərindən danışan QHT sədri bildirib ki, bu mötəbər tədbir ölkəmizin zəngin "yaşıl enerji" potensialını daha yaxşı şərtlərlə realizə edə bilməsinə də imkan yaradacaq. Son 4 ildə ölkəmizin işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı tədbirlərin həyata keçirildiyini, o cümlədən innovativ texnologiyaların tətbiq edildiyini, "yaşıl enerji" zolaqlarının yaradıldığını, "ağıllı kənd", "ağıllı şəhər" layihələrinin reallaşdırıldığını vurğulayan QHT sədri COP29-un Azərbaycanın həyata keçirdiyi uğurlu diplomatiyanın nəticəsi olduğunu deyib. O qeyd edib: "Dünyada geosiyasi ziddiyyətlərin kəskinləşdiyi bir dövrdə Azərbaycanda COP29 kimi beynəlxalq əhəmiyyətli tədbirin keçirilməsi dünya ictimaiyyətinin dəyərli üzvlərini bir araya gətirəcək mərkəz rolunu oynamaq, iqlim maliyyəsi və enerji keçidi kimi əsas məsələlərdə ölkələr arasında ümumi dialoq yaratmaq, dünyada sülhə dəstək kimi missiyanı həyata keçirmək istiqamətində mühüm əhəmiyyət daşıyır.

N.Məmmədova hesab edir ki, bu mötəbər tədbir Azərbaycanın maraqlarının dünyada təbliği, ölkəmizin beynəlxalq aləmdə sülhün və sabitliyin inkişafına dəstək missiyasını həyata keçirməklə bir çox ölkə ilə yeni əməkdaşlıq əlaqələrinin qurulması və inkişafı baxımından da əhəmiyyətli olacaq. COP29 zamanı Azərbaycan ev sahibi ölkə olaraq dünyanı narahat edən ekoloji və iqlim məsələlərinin, sülh və təhlükəsizlik məsələlərinin həlli üçün qlobal mərkəzə çevriləcək.



Ümumiyyətlə, ekspertlər hesab edirlər ki, COP29 Azərbaycanın qeyri-ənənəvi enerji mənbələrindən istifadə sahəsində potensialının daha yaxşı şərtlərlə dəyərləndirilməsinə təkan verə bilər.

"Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin sədri Arzu Bağırova AZƏRTAC-a açıqlamasında bildirib ki, COP29-un ölkəmizdə keçirilməsi müasir infrastrukturun daha da inkişafına, şaxələnməsinə yeni təkan verəcək. "Azərbaycan bərpaolunan enerji mənbələri, xüsusilə günəş və külək enerjisi sahəsində yetərincə geniş imkanlara malikdir. COP29 bu potensialın daha yaxşı şərtlərlə gerçəkləşdirilməsi üçün xarici yatırımları cəlb etməyə, yeni texnologiyaların ölkəmizə gətirilməsini stimullaşdırmağa kömək edəcək. İnfrastruktur layihələrinin genişləndirilməsi, tətbiqi, ümumilikdə bu sahədə inkişaf artıq müşahidə olunur".

QHT təmsilçisi deyib ki, "yaşıl gündəliy"in tətbiqi, habelə maliyyə dəstəyi və texnoloji transferlərin reallaşması Azərbaycanda yeni iş yerlərinin yaradılmasına da gətirib çıxaracaq. "Yol, nəqliyyat, hotelçilik və digər iş sahələrindəki infrastruktur layihələri yerli iqtisadiyyata, heç şübhəsiz, müsbət təsir göstərəcək. Turizm sektorunun canlanması, iş adamlarının yaranmış yeni imkanlardan faydalanaraq yeniliklərə imza atmaları, dövlət-özəl istehsal sektoru işbirliyinin qarşılıqlı faydalı əsasda inkişafı, ekoloji və iqlim diplomatiyası ümumi mənzərənin tamamlayıcı amilləri kimi çıxış edir", - deyə əlavə edib.

A.Bağırova diqqətə çatdırıb ki, belə mötəbər tədbirə evsahibliyi ilə Azərbaycan iqlim dəyişikliyi mövzusunda təkcə davamlı xidmətləri ilə yadda qalmayacaq, həm də ekoloji məsuliyyətin artırılması ilə bağlı yeni təşəbbüslərə yol açmış olacaq. "Bu ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edən Azərbaycan yalnız COP29 günləri boyunca deyil, ilboyu yaşıl dünya mövzusuna köklənən ölkə kimi "COP atəşkəsi" təklifi irəli sürüb. Bu gerçəkləşərsə, gələcəkdə ənənəyə çevrilə bilər. Bu isə qarşıdurma tərəfləri arasında təmas nöqtələrinin tapılması, qanqadanın heç olmasa bir müddətlik dayandırılması üçün çox önəmlidir. Necə deyərlər, bir yerdən başlamaq lazımdır. Düşünürəm ki, sülh axtarışları, müharibələrin sonlandırılması çağırışları üçün Bakıdan daha yaxşı, daha uyğun ünvan yoxdur", - deyə A.Bağırova bildirib.

# COP29 Azərbaycana sərmayə çağırışları edilməsi üçün mühüm platformadır



**Qlobal enerji mühitinin dinamik dəyişiklikləri, iqlim dəyişikliyi ilə mübarizə və enerji müstəqilliyi kimi vacib məsələlər alternativ enerji mənbələrinə olan tələbatı artırır. Azərbaycanın günəş və külək enerjisi sahəsindəki təsdiqlənmiş böyük potensialı bu kontekstdə xüsusi önəm kəsb edir.**

Belə ki, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpaolunan enerji mənbələrinin potensialı 26 940 meqavat, o cümlədən külək enerjisi üzrə 3000 meqavat, günəş enerjisi üzrə 23 040 meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir. Bu potensialdan istifadə etmək üçün beynəlxalq sərmayələrin cəlb edilməsi və maliyyə kanallarının açılması mühüm addımdır. Bu, təkcə iqtisadi inkişafa deyil, eyni zamanda enerji müstəqilliyinin artırılmasına və ekoloji davamlılığa da töhfə verəcək. Məhz buna görə də başlamasına sayılı günlər qalmış BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) müvafiq təşviqlər və tərəfdaşlıqlar vasitəsilə bu sahədə irəliləyişlər əldə edə bilər. Bu, həm də regional enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynaya bilər. Təsadüfi deyil ki, Dünya İqtisadi Forumunun "Effektiv Enerji Keçidinin Təşviqi 2023" hesabatında deyilir ki, Azərbaycan tənzimləmə mühitini və infrastrukturu təkmilləşdirməklə keçidə hazırlıq istiqamətində 120 ölkə arasında 62 enerji keçidi indeksi ilə 32-ci yerə yüksəlib.

## COP29 və beynəlxalq sərmayə çağırışları

COP29 qlobal iqlim siyasətinin müzakirə edildiyi ən önəmli platformalardan biridir. Burada iştirak edən ölkələr arasında iqlim dəyişikliklərinin təsirlərini azaltmaq və enerji keçidini sürətləndirmək üçün müzakirələr aparılacaq. Azərbaycanın evsahibliyi etdiyi bu mötəbər tədbirdə alternativ enerji sahəsindəki potensialının təqdim olunması beynəlxalq sərmayələri cəlb etmək üçün bir fürsət olacaq. Bu çərçivədə dövlətin müvafiq təşviqləri, investisiya mühitinin yaxşılaşdırılması və beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq əhəmiyyətli rol oynayacaq.

Qeyd etmək lazımdır ki, COP29 "maliyyə COP-u" kimi təqdim olunur, çünki ölkələr üçün yeni qlobal iqlim maliyyəsi hədəfi müəyyən ediləcək. Böhranın güclənməsi ilə inkişaf etməkdə olan ölkələrin hazırda ehtiyac duyduğu iqlim maliyyəsinin faktiki məbləğinin ildə 500 milyard dollardan 1 trilyon dollara qədər olacağı təxmin edilir. COP29-un fəaliyyət gündəliyində yer alan əsas təşəbbüslərdən biri də İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun (İMFF) yaradılmasıdır. İqlim maliyyəsində mövcud olan boşluqların aradan qaldırılmasında bu fondun mühüm rol oynayacağı gözlənilir.

COP29-da enerji istehsalını diversifikasiya etmək və xarici sərmayələri cəlb etmək üçün strateji addımlar atılacaq. Beynəlxalq maliyyə kanallarının açılması, investisiya mühitinin yaxşılaşdırılması və müasir texnologiyaların tətbiqi Azərbaycanın enerji sektorunun inkişafında həlledici rol oynaya bilər.

Qeyd edək ki, beynəlxalq maliyyə kanallarının açılması Azərbaycanın alternativ enerji sahəsindəki inkişafını sürətləndirə bilər. Dünya Bankı, Avropa İttifaqı və digər beynəlxalq maliyyə institutları müvafiq layihələrin maliyyələşdirilməsi üçün resurslarını ayıra bilərlər. Bu, yeni texnologiyaların tətbiqi, infrastrukturun modernləşdirilməsi və insan resurslarının inkişafı üçün vacibdir.

İqtisadçı ekspert Eldəniz Əmirov AZƏRTAC-a açıqlamasında bildirib ki, Azərbaycan qeyri-neft sektoru istiqamətində bir çox strategiyalara sahibdir ki, bunlardan biri və daha uzunmüddətlisi alternativ enerji strategiyasıdır.

"Alternativ enerji strategiyası həm də enerji növünə görə üçüncü enerji strategiyasıdır. COP29 Azərbaycanın bu strategiyasının uğurla icra olunmasına, Azərbaycanda birmənalı olaraq bu sektorun inkişafına, eyni zamanda investisiya cəlb edilməsinə öz müsbət töhfəsini verəcək", - deyə E.Əmirov vurğulayıb.

Ekspertin sözlərinə görə, COP29 "yaşıl istiqraz"ların buraxılmasına və bu istiqrazlardan əldə olunmuş vəsaitlərin ölkəmizdə iqtisadi səmərəsinin güclənməsinə imkan verəcək: "Eyni zamanda 2011-ci ildən başlayaraq Azərbaycan bir sıra beynəlxalq tədbirlərə evsahibliyi etməyə başlayıb. COP29 belə tədbirlər siyahısında həm nüfuzuna, həm miqyasına, həm də digər parametrlərinə görə birmənalı olaraq birinci olacaq. Həmçinin ölkə iqtisadiyyatına müsbət təsirlərinə görə də digər tədbirləri geridə qoyacaq. COP29-un önəmi budur ki, yeni iş yerlərinin açılmasına imkan verəcək. Təbii ki, investisiya mühitinin yaxşılaşması və cəlb edilən investisiyalar birmənalı buna imkan verir. Məşğulluğun təmin olunması, turizmin inkişafı, yeni texnologiyaların ölkəmizə gətirilməsi, yeni maliyyə kanallarının formalaşması, "yaşıl maliyyə" mexanizminin ölkəmizdə genişlənməsinə fürsətin yaradılması və s. kimi istiqamətləri də COP29-un edəcəyi töhfələr olaraq qeyd etməliyik".

İqtisadçı ekspert Xalid Kərimli isə açıqlaması zamanı bildirib ki, COP29-la əlaqədar ölkədə iqtisadi aktivlik müşahidə olunur.

"Noyabrda turizm, iaşə, nəqliyyat və digər xidmət sektorları bu prosesdən ciddi faydalanacaqlar. Digər mühüm məqamlardan biri də COP29-da qurulacaq əlaqələrdir. Çünki COP29 çox sayda ali hökumət nümayəndələrinin, eyni zamanda şirkətlərin nüfuzlu şəxslərinin iştirak edəcəyi tədbirdir. Bu baxımdan biznes strukturlarının, həmçinin ölkənin xarici partnyorlarla əlaqələrinin inkişaf etdirilməsi üçün əlverişli platformadır", - deyə X.Kərimli bildirib.

Ekspert vurğulayıb ki, Azərbaycanın postneft dövründə əsas diqqət etdiyi məqamlardan biri "yaşıl enerji" ixracı üzrə ixtisaslaşmaqdır və məhz buna görə, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın BP, Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə Azərbaycanda bərpaolunan enerji istehsalına dair müqavilələr imzalanıb: "Bundan əlavə, Azərbaycanda bərpaolunan enerji sahəsinin inkişaf etdirilməsi məqsədilə Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı kimi beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələr həyata keçirilir. Əsas məqsədlərdən biri elektrik enerjisinin ixracı üçün lazım olan kabel xətlərinin çəkilməsi üzrə investisiyanı maliyyələşdirəcək qurumların cəlbi prosesidir. Həmçinin enerjinin dayanıqlı kanallar vasitəsilə Avropaya ixracı məsələləri də gündəmdədir. Hesab edirəm ki, COP29 bir çox məsələnin həllində mühüm rol oynayacaq".

Nəticə etibarilə Azərbaycanın alternativ enerji mənbələri üzrə böyük potensialı COP29-da beynəlxalq sərmayələrin cəlb edilməsi və maliyyə kanallarının açılması ilə birlikdə ölkənin enerji sektorunun inkişafında həlledici rol oynaya bilər. Bu, yalnız iqtisadi inkişafa deyil, eyni zamanda enerji müstəqilliyinin artırılmasına və ekoloji davamlılığın təmin edilməsinə də töhfə verəcək. Azərbaycanın alternativ enerji potensialını maksimum dərəcədə istifadə etmək üçün atılacaq addımlar gələcəkdə regionda enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayacaq. COP29-un bu məqsədlərə nail olmaq üçün bir platforma kimi istifadə edilməsi Azərbaycanın beynəlxalq enerji arenasında daha da irəliləməsinə imkan yaradacaq.

# COP29 Uniformaların Paylanılması və Akkreditasiya Mərkəzinin açılış mərasimi olub









**Oktyabrın 19-da COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən Milli Gimnastika Arenasında yerləşən COP29 Uniformaların Paylanılması və Akkreditasiya Mərkəzinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərkəzin açılışında COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova, COP29-un İqlim üzrə gənclər çempionu Leyla Həsənova, COP29 Azərbaycan Əməliyyat Şirkətinin Aparat rəhbəri Hikmət Mustafayev iştirak ediblər. Onlar Uniforma Paylanılması və Akkreditasiya Mərkəzində yaradılan şəraitlə tanış olub, akkreditasiya və uniforma paylanılması prosesini izləyiblər.

COP29 konfransının təşkilinə cəlb edilən işçi qüvvə, könüllülər, podratçı şirkətin nümayəndələri də daxil olmaqla ümumilikdə 10 min nəfərə yaxın əməkdaşa xidmət göstərəcək mərkəz təyinata uyğun uniformaların və COP29 konfrans məkanı olan Bakı Stadionuna giriş imkanını əldə etmək üçün akkreditasiyaların səmərəli və sistemləşdirilmiş şəkildə təhvil-təslimini icra etməyə imkan yaradacaq.

Qeyd edək ki, COP29 işçi qüvvəsinin istifadəsi üçün nəzərdə tutulan uniforma geyimləri dayanıqlılıq prinsiplərinə uyğun, geyim dəstləri və onun müxtəlif elementləri ekoloji cəhətdən təmiz, təkrar emal edilə bilən materiallardan hazırlanıb. COP29 tədbir əməliyyatlarının xalis sıfır emissiya prinsipinə müvafiq olaraq uniformalar yerli tərəfdaş tərəfindən təmin olunub.

Milli Gimnastika Arenasında yerləşən COP29 Uniformaların Paylanılması və Akkreditasiya Mərkəzi həftənin 6 günü, saat 10:00-18:00-a qədər xidmət göstərəcək.

Açılış mərasimində həmçinin COP29 prezidentliyinə akkreditasiya kartı təqdim olunub.

# "Azərbaycanın yüksəlişi" mövzusunda intellektual yarış keçirilib










**Oktyabrın 19-da "Yüksəliş" müsabiqəsinin qalibləri, finalçıları və yarımfinalçılarının iştirakı ilə keçirilən "Azərbaycanın yüksəlişi" intellektual kvizi - payız mövsümü uğurla başa çatıb.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycanın yüksəlişi" intellektual yarışı Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpası Gününə, Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərinə və Prezident İlham Əliyevin ölkəmizi yüksəlişə aparan fəaliyyətinə həsr olunub.

Tədbirdə 42 komanda ilə birlikdə 300 nəfərə yaxın iştirakçı öz bilik və bacarıqlarını sınayıb.

Yarışda gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev qalib komandaları təbrik edərək onlara uğurlar arzulayıb və mükafatları təqdim edib.

Müsabiqə nəticələrinə görə, "Yaşıl keçid" komandası I yerə, "Perfect Strangers" komandası II yerə, "DAY22" komandası isə III yerə layiq görülüb.

"Yüksəliş" müsabiqəsi artıq üçüncü dəfədir ki, qaliblər, finalçılar və yarımfinalçılar arasında intellektual kviz keçirir. Qeyd edək ki, bu ilin bahar mövsümündə keçirilən kviz "Yaşıl dünya naminə həmrəylik ili"nə, ötən il baş tutan yarış isə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuşdu.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən - böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

Dördüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti tərəfindən 2023-cü il dekabrın 25-də sərəncam imzalanıb.

# Bakıda COP29-la bağlı nəqliyyatın idarə edilməsi üzrə gündüz monitorinqləri yekunlaşıb

**Bu il noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək COP29-a hazırlıq prosesi çərçivəsində yol hərəkətinin fasiləsiz və təhlükəsiz şəkildə təşkili məqsədilə paytaxtda nəqliyyatın idarə edilməsi üzrə gündüz saatlarında keçirilən monitorinqlər uğurla yekunlaşıb.**







COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, monitorinq tədbirləri çərçivəsində oktyabrın 19-u saat 11:00-dan 15:30-dək paytaxtın mərkəzində yerləşən qonaqlama məkanları, Heydər Əliyev Mərkəzi və Heydər Əliyev Beynəlxalq Aeroportu istiqamətlərində müvafiq avtomobillərin hərəkəti test edilib.

Qeyd olunub ki, 20-dən artıq avtomobil və 15 avtobusun cəlb edilməsi ilə COP29 Azərbaycan Əməliyyat Şirkəti, Daxili İşlər Nazirliyi və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən reallaşdırılan monitorinq tədbirləri zamanı yol hərəkətinə məhdudiyyətlər tətbiq edilməyib.



# Gürcüstan azərbaycanlılarının ikinci qrupu Xankəndi şəhərinə gəlib

**Gürcüstan azərbaycanlılarının ikinci qrupunun işğaldan azad olunan ərazilərə səfəri başlayıb.**

AZƏRTAC xəbər verir ki, növbəti qrup əvvəlcə Xankəndi şəhərinə gəlib. Qonaqlar üçün şəhər gəzintisi təşkil edilib, onlara Xankəndinin tarixi, erməni vandalizmi və həyata keçirilən tikinti-quruculuq işləri haqqında ətraflı məlumat verilib.

Gürcüstan azərbaycanlıları həmçinin Qarabağ Universitetinə gəlib, burada yaradılan şəraitlə tanış olublar. Bildirilib ki, yeni tədris ilindən başlayaraq, Qarabağ Universiteti qapılarını tələbələrin üzünə açıb. Qonaqlar oktyabrın 20-də Şuşa və Ağdama səfər edəcəklər.

Qeyd edək ki, Gürcüstan azərbaycanlılarının Şuşa, Xankəndi və Ağdama səfəri üç qrupda olmaqla, altı gün ərzində həyata keçirilir.




# Xəzəryanı ölkələrin idman nazirliklərinin qarşılıqlı fəaliyyət perspektivləri müzakirə olunub

**Azərbaycan gənclər və idman nazirinin müavini Fərhad Hacıyev Xəzəryanı ölkələrin nümayəndələrinin bədən tərbiyəsi və idmanın inkişafına həsr olunmuş görüşündə iştirak edib.**



AZƏRTAC Rusiya İdman Nazirliyinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, "Bədən tərbiyəsi və idman sahəsində Xəzəryanı dialoq" adlı görüş Başqırdıstanın paytaxtı Ufa şəhərində "Rusiya - idman dövləti" Beynəlxalq Forumu çərçivəsində təşkil olunub. Tədbirdə Rusiyanın idman naziri Mixail Deqtyarev, Qazaxıstanın turizm və idman naziri Erbol Mırzabosınov, İranın İdman və Gənclər Nazirliyinin İdman federasiyalarının birgə fəaliyyəti şöbəsinin rəhbəri Əhməd Nameni, Azərbaycan gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, habelə Həştərxan vilayətinin idman naziri Nina İvaşkina və Rusiya Şahmat Federasiyasının icraçı direktoru Aleksandr Tkaçev iştirak ediblər.

Mixail Deqtyarev Xəzər regionu ölkələrinin idman nazirliklərinin nümayəndələri arasında qarşılıqlı fəaliyyətdən danışıb. O, bu ölkələrdə əhatəli idman proqramı və milli komponentlər əsasında irimiqyaslı yarışların keçirilməsi üzərində işləməyi təklif edib.

Rusiyalı nazir qeyd edib: "Təqdim olunan format bu yaxınlarda Həştərxanda keçirilən və davam edəcək Xəzər Oyunlarının əsasını təşkil edəcək. Bu, tələbə klubu yarışmasıdır. Biz həmçinin 16 yaşadək oğlanlar arasında şahmat üzrə Xəzər Qran-prisinin keçirilməsi təşəbbüsü üzərində işləyirik. Bu formatı digər federasiyalara da təklif edə bilərik".

Görüşdən sonra Rusiya İdman Nazirliyinin rəhbəri bütün iştirakçıların təşəbbüslərini yol xəritəsində birləşdirməyi təklif edib: "Bu və digər təşəbbüslər Xəzər regionu ölkələrində gənc idmançıların dəstəklənməsinə və kütləvi idmanın inkişafına yönəlmiş Tədbirlər Planının əsasını təşkil edə bilər".

# *Can NİN:* "Azərbaycan hər zaman beynəlxalq məsələlərdə fəal iştirak edib"

**"Azərbaycan hər zaman beynəlxalq məsələlərdə fəal iştirak edib. Bu il Azərbaycan hazırda dünyanın gələcəyində böyük əhəmiyyət daşıyan COP29-a evsahibliyi edəcək".**




Bu sözləri AZƏRTAC-a açıqlamasında Çin İctimai Elmlər Akademiyasının Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya Tədqiqat İnstitutunun şöbə müdiri Can Nin söyləyib.

Çinli tədqiqatçı iqlim dəyişikliyinin beynəlxalq aləmə böyük təsir göstərdiyini, xüsusən qlobal istiləşmənin, buzlaqların əriməsinin buna misal olduğunu deyib.

"Bunlar mahiyyət etibarilə iqtisadi və sosial dəyişikliklərə təsir edən vacib aspektlərdəndir" deyən Can Nin əlavə edib ki, sözügedən problemlərlə mübarizə üçün bir çox ölkə elm və texnikanı, rəqəmsal texnologiyanı inkişaf etdirir, yeni enerji mənbələri axtarır.

Çinli tədqiqatçı iqlim dəyişikliyi ilə mübarizənin təkcə ekoloji mühitin qorunması baxımından deyil, ümumilikdə bəşəriyyət üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb.

# *Gürcüstanlı jurnalist:* "Qarabağda görülən işlər Azərbaycandakı sağlam iqtisadi və siyasi vəziyyətdən xəbər verir"

**"İşğaldan azad olunan ərazilərə bir neçə səfərim olub. Lakin Xankəndiyə ilk səfərimdir. İlk səfərimdən bu günə qədər Qarabağa gəldikdə aparılan işlərin artdığını görürəm və bir azərbaycanlı kimi fəxr hissi keçirirəm".**




Bu sözləri AZƏRTAC-a əslən azərbaycanlı olan Gürcüstan vətəndaşı, jurnalist Ramilə Əliyeva söyləyib. "Obyektiv olaraq demək olar ki, möhtəşəm işlər görülür və Qarabağa hər səfərimdə işlərin miqyasının artdığını hiss edirəm. Çəkilən avtomobil yolları, yenidən qurulan infrastruktur göz önündədir. Ötən səfərimdə Şuşa Qlobal Media Forumunda iştirak edərkən Laçına da səfərimiz oldu və şəhərin infrastrukturu bizləri valeh etdi. Gürcüstana geri döndüyümdə həmkarlarıma və tanıdıqlarıma məhz Laçın barədə məlumat verərək bərpa və tikinti quruculuq işlərinin qısa müddətdə necə sürətlə aparıldığını dedim. Görülən bu işlər, təbii ki, Azərbaycanda iqtisadi, siyasi, ideoloji vəziyyətin sağlam olduğundan xəbər verir və bu, çox sevindirici haldır. Bu, həm də məni bir Gürcüstan vətəndaşı olaraq sevindirir ki, Gürcüstanın belə bir güclü strateji tərəf müqabili, dost, qonşu ölkəsi var. Bu gün həmçinin Xankəndidə aparılan işlərin şahidi olduq. Biz bura gələrkən şəhərdə çalışan insanları gördük. İnanıram ki, burada çalışanlar, sadəcə, qazanc naminə işləmir, həm də işlərinin öhdəsindən ürəklə gəlirlər. Onlar Qarabağın müasir tarixinin yazılmasında iştirak edirlər ki, bu özü də insan həyatında çox əhəmiyyətli hadisədir.



# Azərbaycanı milli hədəflərə çatdıran Lider

**Azərbaycan Prezidenti İlham Əliyevin ilk dəfə dövlət başçısı seçildiyi gündən bu günədək ölkədə çox mühüm və müsbət dəyişikliklər baş verib. İnstitusional və çoxvektorlu islahatların aparılması ictimai və iqtisadi tərəqqiyə təkan verib, Azərbaycan regionda lider ölkəyə çevrilib. Bu illər ərzində uğurlarımızın zirvə nöqtəsi isə Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi olub. Bununla da Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrilib.**

İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində mühüm tədbirlər görülüb. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alıb.

Ölkəmizin əldə etdiyi uğurlar onun beynəlxalq arenada nüfuzunu artırıb, Azərbaycanı digər dövlətlər üçün istənilən sahədə etibarlı tərəfdaşa çevirib. Azərbaycanda bütün sahələrin inkişaf etməsi respublikamızın bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunub. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb. Azərbaycan dünyada həm də mühüm beynəlxalq tədbirlərin, yarışların keçirildiyi ölkə kimi tanınıb. Bakı "Eurovision" mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula-1" yarışlarına, futbol üzrə Avropa çempionatının final mərhələsinin bir neçə oyununa evsahibliyi edib. Gələn ay COP29 kimi mötəbər bir beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunun bariz nümunəsidir.

2003-cü ildən 2024-cü illərə qədər dövrü ölkəmiz üçün ictimai-siyasi sahələrlə yanaşı, iqtisadi sahədə də yüksəliş və rifah dövrü hesab etmək olar. Bu dövrdə Azərbaycan dinamik iqtisadi inkişaf mərhələsinə qədəm qoyub. Belə ki, 2003-cü ildə neft gəlirləri hesabına Azərbaycan Dövlət Neft Fondunun aktivləri 815,6 milyon ABŞ dollar təşkil etdiyi halda ötən 21 ildə bu rəqəm 71 dəfədən çox artaraq 58 milyard dollara yüksəlib. Fondun gəlirləri isə 2023-cü ilin sonuna 196,7 milyard dollara çatıb. 2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 310,4 milyard ABŞ dolları təşkil edib. Ölkə iqtisadiyyatına qoyulmuş birbaşa xarici investisiyaların həcmi isə 100,7 milyard ABŞ dollarından çox olub. Ötən dövr ərzində Azərbaycanda ümumdaxili məhsulun həcmi (ÜDM) 7,3 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb. Bu isə real ifadədə 3,6 dəfə artım deməkdir. Adambaşına düşən ÜDM isə 888,5 ABŞ dollarından 7 min 798 ABŞ dollarına yüksəlib.



2003-2024-cü illərdə Azərbaycanın qeyri-neft-qaz iqtisadiyyatı 5 milyard ABŞ dollarından 41,1 milyard ABŞ dollarına çatıb. Kənd təsərrüfatı sektorunda 2,1 dəfə, nəqliyyat sektorunda 4,9 dəfə, turizm və ictimai iaşə sektorlarında 18,9 dəfə, informasiya və rabitə sahəsində isə 23 dəfə artım qeydə alınıb. 2003-cü ildə 1,6 milyard ABŞ dolları təşkil edən Azərbaycanın valyuta ehtiyatları 43 dəfə artaraq 69 milyard ABŞ dollarına yüksəlib. Dövlət büdcəsinin gəlirləri 0,9 milyard manatdan 30,7 milyard manata çatıb.

Bu illərdə Azərbaycanın ticarət əlaqələri də genişlənib. Ölkəmizin ticarət tərəfdaşları olan dövlətlərin sayı 2022-ci ildə 55-dən 185-ə çatıb. Xarici ticarət dövriyyəmiz 3,8 milyard ABŞ dollarından 52,7 milyard ABŞ dollarına yüksəlib. İxrac həcmi isə 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına çatıb. 2022-ci ildə ölkəmizin xarici ticarət dövriyyəsinin həcmi 2002-ci illə müqayisədə 13,7 dəfə, o cümlədən idxal 8,7 dəfə, ixrac isə 17,6 dəfə artıb.

Dünyada baş verən geosiyasi proseslər və İkinci Qarabağ müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycanın nəqliyyat habına çevrilməsi üçün yeni fürsətlər yaradıb. Çindən Avropaya yüklərin ən qısa zamanda və hazırkı geosiyası proseslər fonunda təhlükəsiz çatdırılması üçün Orta dəhliz ən ideal alternativə çevrilib. Hazırda Orta dəhlizin funksionallığının artmasında mühüm rol oynayan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti məhz Azərbaycanın moderatorluğu ilə inşa olunaraq 2017-ci ildə istifadəyə verilib. Ölkə üzərindən tranzit daşımalar sürətlə artır. Təkcə bu ilin ilk yarısında Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 16,4 milyon tona çatıb.

Azərbaycanda aparılan sosial siyasət nəticəsində xalqımızın rifahı yaxşılaşıb, yoxsulluq səviyyəsi azalıb, yeni iş yerləri açılıb. İlham Əliyevin strateji inkişaf kursunun nəticəsində Azərbaycan 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Hər il dövlət büdcəsi tərtib edilərkən büdcənin sosialyönümlü olmasına xüsusi diqqət yetirilib. Bunun nəticəsidir ki, 2003-2023-cü illərdə sosial təyinatlı büdcə xərcləri 20 dəfədən çox artıb. 2003-cü ildə dövlət büdcəsindən sosial xərclərə 678,2 milyon manat, 2022-ci ildə 11,6 milyard manat yönəldilib.

İqtisadi sektorun bir parçası olaraq qiymətləndirmə sahəsində də ölkəmizdə önəmli addımlar atılıb. Son dövrlər bu sahədə yeni reallıqlar müşahidə edilir. Belə ki, ötən il Azərbaycanda "Qiymətləndirmə fəaliyyəti haqqında" yeni qanun qəbul edilib. Qanunun müddəaları əsasında, Azərbaycan Qiymətləndiricilər Palatası yaradılacaq. Artıq ölkədə qiymətləndirmə fəaliyyəti göstərmək istəyən şəxslərin ixtisas imtahanlarına qeydiyyat elan edilib. Bu il oktyabrın 27-də sözügedən ixtisas imtahanlarının ilk mərhələsi baş tutacaq. İmtahandan keçən qiymətləndiricilər ixtisas şəhadətnaməsi əldə edəcək və Azərbaycan Qiymətləndiricilər Palatasının üzvü olacaqlar.

Prezident İlham Əliyev Azərbaycan xalqına uğurlu hədəfləri göstərən milli liderdir. Dövlətimizin başçısının qətiyyətli siyasəti təkcə Azərbaycanın inkişafına deyil, həm də türk dövlətləri arasında ictimai, iqtisadi və siyasi münasibətlərin daha da yüksəlməsinə mühüm töhfə verir. Azərbaycanın təşəbbüsləri, həyata keçirdiyi layihələr türk dövlətlərinin birliyinin formalaşmasında müstəsna rol oynayır. Təsadüfi deyil ki, türk dünyasının birliyinin güclənməsinə əhəmiyyətli təsir edən Türk Dövlətləri Təşkilatı məhz 2009-cu ildə imzalanmış Naxçıvan sazişi ilə yaradılıb. Türk dövlətləri ilə əməkdaşlığın inkişafı xarici siyasətimizin əsas istiqamətlərindəndir. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə bu əməkdaşlıq mahiyyətcə yeni mərhələyə keçib. Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Zəfər ümumən türk dünyasının nüfuzunun artmasına səbəb olub. Bu, bütün türk dünyasının zəfəridir. Bu il fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev bizim ailəmizin türk dünyası olduğunu bəyan edib.

Bu gün Azərbaycan öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Əminliklə söyləmək olar ki, dövlət başçısı İlham Əliyevin müstəsna liderlik bacarığı və siyasi məharəti ölkəmizin uğurlarını bundan sonra da davam etdirməyə imkan yaradacaq.

**Vüqar ORUC,**
***Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, Türk Dövlətləri Qiymətləndiricilər Birliyi Şurasının prezidenti***

# Azərbaycan-Gürcüstan münasibətləri Cənubi Qafqazı cəlbedici regiona çevirib

## Bölgənin gələcəyi də daha çox bu iki dost ölkədən asılıdır

**Artıq neçə vaxtdır dünya hegemonluğu uğrunda gedən yeni mübarizə diplomatik müstəvidən çıxaraq açıq müharibəyə çevrilib. Qərb Rusiyanın yenidən güclənib dünyada söz sahibi olmaq ambisiyalarının qarşısını almaq üçün Ukrayna da ona "dərs" vermək istəyir. Amma 2 il yarımdan çox davam edən Rusiya-Ukrayna savaşı göstərir ki, bu, heç də asan iş deyilmiş.**



Bununla belə, Qərb müharibə ilə Rusiyanın başını qatıb müəyyən qədər dünya siyasətindən kənarlaşdırıb və nəticədə, Rusiya Yaxın Şərqdə baş verən proseslərə fəal şəkildə müdaxilə edə bilmir. İş o yerə çatıb ki, Rusiya Suriyanın təhlükəsizliyi barədə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək imkanını itirib. Belə vəziyyət şimal qonşumuza olan güvənin tədricən əriməsinə də səbəb olur.

Yaxın Şərqdə gedən qanlı proseslər də dünya üçün böyük təhdidə çevrilib. Xüsusən İran-İsrail arasında olan gərgin münasibətlərin müharibəyə çevrilməsi ehtimalı az deyil. Bu isə həm də dünya iqtisadiyyatının çökməsi demək olardı. İran açıq şəkildə bildirir ki, əgər İsrail onun neft infrastrukturuna zərbələr endirsə, Hörmüz boğazını bağlayacaq. Bu halda isə bütün dünya ziyan görəcək. Belə ki, dünya neftinin üçdənbiri bu boğaz üzərindən daşınır. Mütəxəssislərin hesablamalarına görə, Hörmüz bağlanarsa, neftin bir barelinin qiyməti 200 dolları ötə bilər. Nəticədə dünya iqtisadiyyatı elə bir zərbə alar ki, onun yenidən dirçəldilməsi üçün ən azı 10 il vaxt lazım olar.

Son günlər ABŞ başqa olmaqla Qərb bloku ilə Çin arasında olan münasibətlər də gərginləşib. ABŞ Çinin öz ayrılmaz ərazisi hesab etdiyi Tayvanı yenidən silahlandırır. Çin ABŞ-nin addımına qarşı Tayvan ətrafında böyükmiqyaslı hərbi təlimlər keçirməklə cavab verir. ABŞ də Sakit okean regionunda hərbi təlimlərin sayını artırıb. Belə görünür ki, bu ərazinin yeni bir savaş meydanına çevrilmək təhlükəsi gündən-günə artır. Dünyanın isə həmin regionda daha bir savaşın baş verməsindən narahat olmasından başqa çarəsi qalmır. Səbəbi həmin savaşda nüvə silahından istifadənin daha real olmasıdır.

Qərbin strateji hədəflərindən biri də Cənubi Qafqazdır. Onlar üzdə bunu Rusiyanı bölgədən çıxarmaq kimi qələmə versələr də, əsl hədəf daha böyükdür. Cənubi Qafqaz dünyanın ən əhəmiyyətli geosiyasi məkanıdır və ona görə də regiona nəzarət etmək Qərbin strateji marağındadır. Qərb yerləşdiyimiz coğrafi məkanı ələ keçirməklə iki mühüm strateji imkan əldə edə bilər - Rusiyaya nəzarət etmək və Çinin Avropaya çıxışının qarşısını almaq. Digər tərəfdən məlumdur ki, Orta Asiya ölkələri zəngin neft, qaz, uran və digər qiymətli resurslara malikdir. Bunlara nəzarət də Qərb üçün xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda Çindən Cənubi Qafqaza qədər uzanan məsafə dünyanın ən əhəmiyyətli ticarət marşrutunun keçdiyi ərazidir. Təbii ki, bütün bunlar Qərbin bölgəmizə marağını artırmaya bilməz.

Bu marağın fonunda Azərbaycan və Gürcüstan Ermənistandan fərqli olaraq öz milli mənafelərini qorumaq üçün mübarizə aparır. O səbəbdən Qərb Azərbaycana və Gürcüstana təzyiq göstərmək üçün əlindəki bütün vasitələrdən istifadə etməyə çalışır. Ermənistan isə nəinki Qərbin şantajlarına boyun əyir, əksinə, bir alət kimi ondan Azərbaycan və Gürcüstana qarşı istifadə olunmasına imkan yaradır. Qərb də, sözsüz ki, bu fürsətdən maksimum yararlanmaq istəyir. Son dövrlər Ermənistanın sürətlə silahlandırılması da həmin istəkdən qaynaqlanır.

Qərbin Azərbaycan və Gürcüstanı hədəf götürməsinin səbəbi isə bu ölkələrin öz milli maraqlarına uyğun siyasət aparmalarıdır. Gürcüstanın mövcud iqtidarı yaxşı bilir ki, vaxtilə Qərbin onlardan Rusiyaya qarşı istifadə etməyinin nəticəsində ölkə bu gün üç yerə parçalanıb. Ona görə də indiki hakimiyyət siyasi yolla ölkənin bütövlüyünü bərpa etmək istəyir. Amma bunun üçün ilk növbədə Gürcüstanın Rusiya ilə münasibətlərinin normallaşması gərəkdir. Həqiqətən, son dövrlər bu ölkələr arasında münasibətlərin normallaşması istiqamətində tərpənişlər hiss olunur. Bu isə Qərbin region üçün hazırladığı geosiyasi strategiyaya ziddir. Buna görə Qərb dairələri son vaxtlar açıq şəkildə Gürcüstanın daxili işlərinə qarışır. Məqsəd də mövcud iqtidarı hakimiyyətdən uzaqlaşdırmaq və onu özünə yaxın qüvvələrə təhvil verməkdir. Qərb yalnız belə olan halda regionumuzla bağlı strateji planlarını həyata keçirə bilər, yəni Çindən Avropaya qədər uzanan bütün infrastruktur layihələrinə nəzarəti ələ keçirməklə böyük bir ərazidə olan ölkələrə öz şərtlərini diktə etmək imkanı qazanmış olar.

Bu səbəbdən Gürcüstanın hazırkı iqtidarının hakimiyyətdə qalması ölkəmizin də milli maraqlarına uyğundur. Azərbaycan dost ölkənin mövcud iqtidari ilə iki ölkənin milli maraqları çərçivəsində uğurlu əməkdaşlıq edir. Dövlət və hökumət başçıları qarşılıqlı səfərlər edir, iki ölkə arasında siyasi və iqtisadi münasibətlər daha da dərinləşir. Bu gün Azərbaycan Gürcüstan iqtisadiyyatına ən çox sərmayə qoyan ölkədir. Ölkələrimizi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, "Cənub qaz dəhlizi" kimi nəhəng layihələr birləşdirir. Azərbaycan və Gürcüstan beynəlxalq təşkilatlarda həmişə bir-birilərinin ərazi bütövlüyünü dəstəkləyir. Prezident İlham Əliyev bunu yüksək qiymətləndirərək demişdir: "Eyni zamanda bu gün biz ölkələrimizin ərazi bütövlüyü, suverenliyi ilə bağlı bir daha qarşılıqlı dəstək ifadə etdik və bu gün mətbuat qarşısında mən bunu bir daha demək istəyirəm. Biz bütün dövrlərdə bir-birimizin suverenliyini, ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını dəstəkləyən açıqlamalar vermişik, müvafiq beynəlxalq təşkilatlarda səsvermə zamanı bir-birimizi dəstəkləmişik, bundan sonra da bu dəstək davam edəcək. Heç bir ölkənin suveren ərazisi zor gücü ilə dəyişdirilə bilməz. Beynəlxalq hüququn normaları hər bir ölkə üçün əsas olmalıdır və burada heç bir ayrı-seçkilik ola bilməz".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# *Zurab MUSAYEV:*

## "Gürcüstan seçkilərdən sonra da demokratiya prinsiplərinə uyğun inkişaf edəcək"



**"Bu gün gürcü xalqı seçim qarşısındadır. Xalq fikirləşməlidir ki, oktyabrın 26-da keçiriləcək parlament seçkilərində nəyə - sülhə, yoxsa müharibə partiyasına səs versinlər? Mənim fikrimcə, insanlara sülh və sabitlik, inkişaf, firavanlıq lazımdır. Bunu da Gürcüstana və gürcü xalqına "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyası verə bilər".**

Bu sözləri AZƏRTAC-a gürcü siyasətçi Zurab Musayev söyləyib.

Onun sözlərinə görə, gürcü xalqı son 12 ildə "Gürcü arzusu"nun hakimiyyəti dövründə gördü ki, müharibə yoxdur, qan tökülmür, ölkə iqtisadiyyatı inkişaf edir. İnsanlar milliyyətindən, dinindən və dilindən asılı olmayaraq sülh şəraitində yaşayırlar.

Z.Musayev deyir ki, ABŞ və bəzi Qərb dövlətləri Qafqazda söz sahibi olmaq üçün kiçik dövlətlərə hökm etmək, onları özlərinə tabe etdirmək istəyirlər. Amma bu, mümkün deyil: "Gürcü xalqı çətin sınaqlardan keçərək öz müstəqilliyinə qovuşub, suveren dövlətdir. Bu gün Gürcüstan ABŞ, Qərb, eləcə də Şərq dövlətləri ilə dostluq və mehriban qonşuluq şəraitində yaşamaq istəyir. Hamıya da eyni cür dost əlini uzadır. Bunu istəməyənlər özləri bilərlər, bizimlə dost olmaq istəmirlərsə, istəməsinlər. Amma bizimlə düşmənlik də etməsinlər. Bu, heç kimə xeyir gətirməz".

"Bu gün Gürcüstanın bəzi dövlətlərlə çox mehriban qonşuluq və dostluq əlaqələri var. Bu əlaqələr seçkilərdən sonra da yüksələn xətt üzrə inkişaf edəcək. Gürcüstanın Qərb və ABŞ-lə münasibətləri də seçkilərdən sonra yenə öz qaydasına düşəcək. Gürcüstanda Qərbin iddia etdiyi kimi, birpartiyalı hökumət yoxdur və olmayacaq. Bizim çoxpartiyalı parlamentimiz var, seçkilərdən sonra da belə olacaq və Gürcüstan demokratiya prinsiplərinə uyğun olaraq inkişaf edəcək", - deyə Z.Musayev vurğulayıb.

# Paşinyanın komandası parçalanır

## Deputatlar güc strukturlarına qarşı çıxırlar

**Ermənistanda sosial problemlər tükənmir. İşsizliyin və səfalətin gətirdiyi çətinliklər səbəbindən intihar edənlərin sayı da artıb. Hər il ölkədə 200-dən çox insan ağır həyat şəraiti səbəbindən özünə qəsd edir. Bu, ölkənin təxminən bir kəndinin əhalisi qədərdir.**

Erməni sosioloqlar ölkədəki kriminogen vəziyyət və intiharların artması ilə bağlı həyəcan təbili çalırlar. Bildirilir ki, bu ilin 10 ayı ərzində onsuz da əhalisi az olan ölkədə 100-dən çox intihar hadisəsi baş verib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxdur. İntiharların kökündə dayanan yeganə səbəb isə yoxsulluq, sosial sahədə yaranan problemlərdir.

Ancaq hakimiyyəti sosial problemlər maraqlandırmır. Belə ki, baş nazir Nikol Paşinyan Ermənistanda hakimiyyətə Rusiyayönlü qüvvə və ya fiqurun gələcəyindən ehtiyat edərək, hələ də Qərbdən dəstək almağa çalışır. Amma hakim Vətəndaş Müqaviləsi Partiyasında N.Paşinyanın anti-Rusiya siyasəti ilə bağlı dərin, lakin səssiz fikir ayrılığı var və bu da təşkilatda parçalanmaya yol açır.

"4rd.am" nəşri yazıb ki, partiyadaxili cəbhələşmə, bir-birinə qarşı kompromat toplama əməliyyatları getdikcə şiddətlənir. Bu günlərdə parlamentdə İstintaq Komitəsinin sədri Argişti Kyaramyan və deputat Ovik Ağazaryan arasında baş verən mübahisə də vəziyyətin nə dərəcədə ciddi olmasından xəbər verir. Qarşıdurmanı başladan tərəf hakim partiyanın nüfuzlu üzvü Andranik Koçaryandır. Ovik Ağazaryanı özündən çıxaran məsələ isə hüquq-mühafizə orqanları ilə partiyadaşları arasında bir müddətdir davam edən gizli savaşdır. Məlumdur ki, Ovikin oğlu qeyri-qanuni işlərlə məşğuldur və artıq polisin diqqətini cəlb edir. Dövlət büdcəsi hesabına avtomobil idxalı ilə məşğul olub cibini dolduran Ağazaryanın xeyli adamı aldatdığı da üzə çıxıb.



O da iddia edilir ki, baş nazir N.Paşinyanın parlament tərəfindən dəstəklənməyəcəyi təqdirdə, dövlət çevrilişini planlayan şəxslərdən biri də məhz Andranik Koçaryandır.

Qeyd olunub ki, baş nazir Nikol Paşinyan da komanda daxilində gərginlik və qarşıdurmadan xəbərdardır. Amma proseslərə ya təsir edə bilmir, ya da təsir etmək niyyətində deyil. Belə bir dilemma da var ki, əgər Paşinyan rüşvət və korrupsiyaya bulaşmış deputatları açıq-aşkar müdafiə etsə, hüquq-mühafizə orqanları içindəki dayaqları sarsılacaq. Yox, əgər baş nazir qeyri-qanuni əmrlərini yerinə yetirən təhlükəsizlik qüvvələrini qorumağa çalışsa, bu zaman parlamentdəki oliqarxlar bundan narazı qala bilərlər. Bu səbəbdən də hələlik proseslərə müdaxilə etmir.

Son dövrlər partiyadaxili iclaslarda fraksiya üzvlərinin 99 faizi güc strukturlarının fəaliyyətindən kəskin narazılıqlarını bildirir, hətta bəziləri təhqiramiz ifadələr işlədirlər, lakin həmin şikayətçilər parlamentdə aparılan dinləmələrdə iştirak etməyiblər. Çünki korrupsiya və rüşvətə bulaşmış deputatlar dinləmələrdə iştirak edib, hüquq-mühafizə orqanlarının qəzəb oxuna tuş gəlmək niyyətində deyillər. Əslində, bu dinləmələr də sübut etdi ki, artıq hakim partiyada birlik yoxdur.

İndi Ermənistanda belə hesab olunur ki, mövcud problemlərin meydana gəlməsi və dərinləşməsində Paşinyan iqtidarının yarıtmaz siyasəti əsas rol oynayır. Bu isə o deməkdir ki, İrəvanı qarşıdakı dövr ərzində hələ də ağır günlər gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Şərqi Zəngəzurdan reportaj

# Bərpadan sonra Zəngilan cənnətə dönəcək



**Həyatda dəyişilməyən heç nə yoxdur. Zaman-zaman hər şey yenilənir. Gec-tez zülmətin də üstünə işıq düşür. Elə uzun illər işğalda qalmış ərazilər də günlərin birində düşmənlərdən təmizlənir. Yurda, torpağa, Vətənə Qələbə sədası yayılır. Biz bunu 44 günlük Vətən müharibəsində bir daha gördük...**

Təəssüflər olsun ki, 1992-1993-cü illər tariximizə torpaqlarımızın ermənilər tərəfindən işğal olunduğu illər kimi düşdü. Azərbaycanın əbədi-əzəli ərazisi olan Qarabağ və onun ətrafındakı beş rayon erməni qəsbkarları tərəfindən ələ keçirildi. Ermənilər zəbt etdikləri şəhər və kəndlərimizi odlara qaladılar, zəhmətlə tikdiyimiz evləri, ulu keçmişimizdən xəbər verən mədəniyyət abidələrimizi, müqəddəs ziyarətgahlarımızı yerlə yeksan etdilər. Yüzlərlə, minlərlə soydaşımızı amansızcasına qətlə yetirdilər, əsir apardılar.

### Zəngilanın müdafiəçiləri şəhid oldular, amma geri çəkilmədilər

Erməni qəsbkarları 1993-cü ildə Zəngilan rayonunu da işğal etdilər. Cəbrayıl və Füzuli rayonları ermənilər tərəfindən ələ keçirildiyinə görə Zəngilanı ölkənin paytaxtı ilə birləşdirən yollar bağlanmışdı. Rayon mühasirəyə düşmüş, bütün əlaqələr kəsilmiş, vəziyyət gərgin xarakter almışdı. Rayon sakinlərinin həyatı üçün təhlükə yaranmışdı. Bölgəyə nə canlı qüvvə, nə də texnika və silah-sursat göndərmək mümkün deyildi. 31 avqust 1993-cü ildə Qubadlı rayonunun düşmən əlinə keçməsi Zəngilanın işğal olunması riskini xeyli artırdı. Ətraf rayonları zəbt edən düşmən bir neçə istiqamətdən Zəngilan üzərinə hücuma keçdi. Hücumlar nə qədər güclü olsa da, zabit və əsgərlərimiz mövqelərindən çəkilmədən vuruşurdular. Müdafiəçilər rayonun işğalçıların əlinə keçməməsi üçün son ana qədər cəsarətlə döyüşsələr də, cəhdləri fayda vermədi, əraziləri qorumaq mümkün olmadı. Təəssüflər olsun ki, rayon 29 oktyabr 1993-cü ildə düşmən əlinə keçdi. Zəngilan Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan sonuncu rayon idi. Onun uğrunda gedən döyüşlərdə 230 nəfər şəhid oldu. Bu insanlar içdikləri anda sadiq qalaraq torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçdilər. Amma bir addım da geri çəkilmədilər. Cəsarətləri ilə adlarını qəhrəmanlıq tariximizə yazdılar.

İşğaldan sonra rayon sakinlərinin məcburi köçkünlük həyatı başladı. Qoynunda doğulduqları doğma ocaqlardan uzaqlarda yaşasalar da, onların ürəkləri Zəngilanla döyünürdü. Bir gün, bir an olsun belə ata-baba yurdlarını yaddan çıxarmırdılar. Rayona qayıdacaqları günün həsrəti ilə yaşayırdılar. İnanırdılar ki, Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasət nəticəsində günlərin birində torpaqlarımız erməni işğalçılarından azad olunacaq. O gün mütləq gələcək, işğala son qoyulacaq, kədərli qalan çöhrələrə sevinc ələnəcək. Gücünü, qüdrətini artıran şanlı Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini diz çökdürəcək, illərdən bəri işğalda qalmış torpaqları erməni qəsbkarlarından azad edəcək.

Gözlənilən tarixi gün gəldi. 27 sentyabr 2020-ci ildə düşmən təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Erməni qəsbkarları işğal etdikləri torpaqlarımızı danışıqlar yolu ilə qaytarmaq əvəzinə yeni ərazilərimizi işğal etmək üçün mövqelərimiz üzərinə hücuma keçdilər. Torpağının keşiyində ayıq-sayıq dayanmış zabit və əsgərlərimiz işğalçıların qarşısını almaq üçün döyüşlərə atıldılar. Qısa müddət ərzində düşmənin hücumu dayandırıldı. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanının əmri ilə düşmən üzərinə əks-hücum əməliyyatı başladı. Uzun illərdən bəri ermənilərin işğalında qalmış torpaqlarımızın hərbi yolla azad olunması üçün qızğın döyüşlər getdi.

### Oktyabrın 20-də Zəngilan işğaldan azad olundu

Döyüşlərin ilk dəqiqələrindən, ilk saatlarından şanlı Azərbaycan Ordusunun üstünlüyü açıq-aydın hiss olundu. Güclü, qətiyyətli əks-hücumlar qarşısında dayana bilməyən düşmən geri çəkilməyə başladı. Qazanılan ilk uğurlar Silahlı Qüvvələrimizin gücündən, qüdrətindən və yaxın günlərdə düşmən üzərindəki qələbələrdən xəbər verirdi. İkinci Qarabağ müharibəsinin elə birinci günü ordu hissələri xeyli irəliləyərək Cəbrayıl rayonunun bir neçə kəndini işğaldan azad etdi. Zəngilana, Qubadlıya, Laçına, Şuşaya və işğalda qalmış başqa bölgələrə gedən yollar geniş açıldı. Keçirdikləri təlimlərdə yüksək döyüş taktikası mənimsəmiş zabit və əsgərlərimiz dayanmadan irəlilədilər. Oktyabrın 4-də Cəbrayıl rayonu erməni qəsbkarlarından azad olundu.

Cəbhədə qazanılan zəfərlər məcburi köçkünləri daha çox sevindirirdi. Çünki uğurla başa çatacaq döyüşlərdən sonra onlar neçə vaxtdan bəri həsrətini çəkdikləri doğma ocaqlarına qayıdacaqdılar.

Cəbrayılda qazanılmış uğurlardan sonra artıq torpaqlarımızın azadlığı uğrunda döyüşlər Zəngilan rayonu istiqamətində də gedirdi. Hər gün cəbhədən Zəfər xəbərləri gəlirdi. Həmin günlərdə demək olar ki, Azərbaycan xalqı televizor ekranlarının qarşısından çəkilmirdi. Hamı Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəfər müjdələri ilə dolu olan müraciətlərini gözləyirdi. Artıq oktyabr ayının ikinci ongünlüyündən başlayaraq Zəngilan rayonunun qəsəbə və kəndləri uğrunda gərgin döyüşlər gedirdi. Ordu hissələri addım-addım düşməni geri qovurdu. Əməliyyatların gedişində yeni döyüş taktikaları tətbiq edən zabit və əsgərlərimiz zəfərlər qazanırdılar.

Nəhayət, gərgin və həlledici döyüşlərdən sonra Zəngilan rayonu da erməni işğalçılarından azad olundu. Müzəffər Ali Baş Komandan 20 oktyabr 2020-ci ildə xalqa müraciət edərkən Zəngilan rayonunun düşməndən azad olunması müjdəsini verdi. Azərbaycan Prezidenti İlham Əliyevin həmin müraciətini indiki kimi xatırlayırıq: "Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir! Əziz xalqım, əziz zəngilanlılar, füzulililər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!"

1993-cü ildə bir payız günündə - oktyabr ayının 29-da düşmən əlinə keçən Zəngilan 28 ildən sonra elə bir payız günündə də - 20 oktyabr 2020-ci ildə işğaldan azad olundu. Rayon mərkəzi işğalçılardan təmizlənsə də, ətrafdakı kənd və qəsəbələr uğrunda döyüşlər davam edirdi. Düşmən tutduğu yeni mövqelərdən geri çəkilmək istəmirdi.

Böyük strateji əhəmiyyətə malik Zəngilan rayonunun düşməndən azad olunması xəbəri bu ərazilərdən köçkün düşmüş insanların ağrı-acılarına ən yaxşı məlhəm oldu. Uzun illər torpaqlarımızı əllərində saxlamış erməni vandalları Vətənimizin bu gözəl diyarındakı tarixi abidələri də yerlə yeksan etmiş, məzarlıqları vəhşicəsinə dağıtmış, qəbirləri təhqir etmişdilər. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuş Xudayar Yusifzadənin oxuduğu "Vətən yaxşıdır" mahnısı həmin günlərdə hamını kövrəldirdi.

Artıq Zəngilan azad idi. 23 dekabr 2020-ci il Zəngilanın tarixinə qızıl hərflərlə yazıldı. Prezident İlham Əliyev həmin gün Zəngilanda Azərbaycan bayrağını ucaltdı. Dövlət başçısının 31 iyul 2023-cü il tarixli sərəncamına əsasən, şəhərin işğaldan azad edildiyi 20 oktyabr günü Zəngilan Şəhəri Günü kimi qeyd olunur. İşğaldan azad edilmiş ərazilərdə şəhər günlərinin təsis edilməsi Vətən müharibəsində qazanılmış qələbəni tarixiləşdirməyə, əbədiləşdirməyə xidmət edir. İndi bu günü Qələbə ovqatı ilə, Zəfər sevinci ilə, bu sevinci bizə bəxş edən şəhidlərə minnətdarlıq və ehtiram hissi ilə qeyd edirik. Nə qədər sevincli günlər yaşasaq da, erməni vandalizmini, erməni zülmünü, vəhşiliyini, barbarlığını heç vaxt unutmayacağıq.

### Daim ehtiramla xatırlanan qəhrəman

Müharibələr itkisiz olmur. 44 günlük Vətən müharibəsində Zəngilan rayonunun 11 nəfər sakini şəhidlik zirvəsinə yüksəldi. 9 nəfər əlil oldu. Şəhid olan cəsur oğullardan biri də Noçiyev Surxay Əbdül oğludur.

O, 1988-ci il dekabrın 19-da Zəngilan rayonunun Məmmədbəyli kəndində dünyaya göz açmışdı. 1995-2002-ci illərdə Xarici Dillər Təmayüllü Gimnaziyada, 2003-2006-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdı. 2006-2010-cu illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev Hərbi İnstitutu) oxumuşdu. 2010-cu ildə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Zabit ixtisas kursu"nu uğurla başa vurmuşdu. Gənc zabit Surxay Noçiyev 2016-cı ildə ordumuzun uğurları ilə başa çatmış Aprel döyüşlərində iştirak etmiş və böyük qəhrəmanlıq göstərmişdi.

Vətəni, torpağı canından da əziz tutan Surxay Noçiyev 2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində həmişə ön sıralarda vuruşmuşdu. Onun şərəf dolu döyüş yolu Cəbrayıldan başlayıb Füzulidən, qoynunda doğulduğu Zəngilandan, Qubadlıdan, Xocavənddən və Şuşadan keçib. Əks-hücum əməliyyatlarında fəal iştirak edən gənc zabit döyüşlər zamanı düşmənin çoxsaylı canlı qüvvəsini və döyüş texnikalarını məhv edib. Komandir kimi üzərinə düşən döyüş tapşırıqlarını cəsarətlə yerinə yetirib. Tabeliyindəki əsgərlərə nümunə olaraq həmişə irəlidə olub. Son döyüşü noyabr ayının 9-da Şuşa şəhəri ətrafında gedib. 44 günlük Vətən müharibəsinin sonuncu günündə qəhrəmancasına şəhid olub. 12 noyabr 2020-ci ildə İkinci Fəxri xiyabanda torpağa tapşırılıb.

Azərbaycanın ərazi bütövlüyü-



nün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı göstərdiyi fədakarlığa, qəhrəmanlığa görə, kapitan Noçiyev Surxay Əbdül oğluna Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. Cəsur zabit göstərdiyi igidliyə görə həm də "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Daim ehtiramla xatırlanan cəsur zabit Surxay Noçiyevin Vətən uğrunda döyüşdüyü günlərdə qız övladı dünyaya gəlib. Körpənin adını Fidan qoyublar. Qəhrəman Surxaydan iki körpə balası yadigar qalıb: Uğur və Fidan. Övladları atalarının qəhrəmanlığı ilə fəxr edirlər.

### Qələbə sevinci qəhrəmanlığın, cəsarətin təntənəsidir

Zəngilan rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş və böyük hünər göstərmiş əsgər və zabitlərimizin qəhrəmanlığı layiqincə qiymətləndirilib. Həm Zəngilan rayonunun mərkəzində, həm də kənd və qəsəbələrində gedən döyüşlərdə düşmən üzərində qazanılan qələbəyə böyük töhfə verən Dövlət Sərhəd Xidmətinin və Müdafiə Nazirliyinin hərbi qulluqçuları dövlət başçımız tərəfindən orden və medallarla təltif ediliblər.

Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə xalqımıza qələbə sevinci yaşatmış Zeynalov Kamran Alim oğlu ilə görüşüb söhbət etdik. Öyrəndik ki, Bakı şəhərində dünyaya göz açmış Kamran döyüşlərə heç bir çağırış gözləmədən yollanıb. İlk döyüşü Füzulidən başlayıb. Həmin günlərdən söz açan Kamran Zeynalov dedi:

- Torpaqlarımızın uzun illər erməni işğalında qalması bir vətəndaş kimi məni çox narahat edirdi. Ürəyim Xocalı faciəsini törətmiş erməni işğalçılarına qarşı nifrətlə döyünürdü. Nəyin bahasına olsursa-olsun, düşmənlərdən şəhidlərin qisası alınmalıydı. Erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda könüllü olaraq döyüşlərə girdim. Məqsədim torpaqlarımızı azad etmək və düşmənlərdən şəhidlərin intiqamını almaq idi. Döyüş yolum Füzulidən başladı. Həmin günlərdə torpaqlarımızın azadlığı uğrunda gərgin əməliyyatlar gedirdi. Erməni işğalçıları ciddi müqavimət göstərir, geri çəkilmək istəmirdilər. Ordumuzun hissələri də işğalçılara qarşı hücumlarını dayandırmırdılar. Bir müddət sonra bölüyümüzü Cəbrayıl istiqamətinə göndərdilər. Həmin günlər burada da döyüşlər gərgin xarakter almışdı. Torpaqlarımız işğaldan azad olunduqca üzümüz gülürdü. Cəbrayıl rayonunda da çox qalmadıq. Rayon azad olunandan sonra vuruşa-vuruşa, düşməni geri sıxışdıra-sıxışdıra Qubadlı rayonuna gəlib çıxdıq. Bu yerlərdə də atəş səsləri səngimirdi. Oktyabrın 18-də bizi Zəngilan rayonuna göndərdilər. Həkəri çayından keçib təyin olunan məntəqələrə gedib çatdıq. Erməni işğalçıları burada da müqavimət göstərərək, əlverişli mövqeləri əllərində saxlamağa çalışırdılar. Lakin güclü əks-hücumumuz nəticəsində düşmənin müqaviməti qırıldı. Uğurla başa çatan döyüşlərdən sonra oktyabrın 20-də Zəngilan rayonu düşməndən azad olundu. Həmin



gün hamımız qələbə sevincini yaşadıq. Bu, çox gözəl bir hiss idi. Qəhrəmanlığın, igidliyin, cəsarətin və rəşadətin qürur dolu təntənəsi idi.

Keçmiş döyüşçü Kamran Zeynalov Zəngilan azad olunandan sonra Qubadlı uğrunda gedən döyüşlərdə də iştirak edib. 2020-ci ilin sonunda ordu sıralarından tərxis olunub.

Cəsur döyüşçü Zeynalov Kamran Alim oğlu torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb. Cəsur döyüşçü valideynlərinin, ailəsinin, balaca qızı Ziyafətin yanına alnıaçıq, başıuca, qalib əsgər kimi qayıdıb.

### Doğma ocaqlar uzun illərdən sonra əbədi-əzəli sakinlərini qoynuna aldı

44 günlük Vətən müharibəsi Zəfərlə başa çatdıqdan sonra Prezident İlham Əliyevin rəhbərliyi altında erməni işğalçılarından azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinə başlanıldı. Düşmənlərdən təmizlənmiş ərazilərdə elə ilk olaraq Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsi həyata keçirildi. Qısa müddət ərzində keçmiş məcburi köçkünlər üçün evlər tikildi. 2022-ci ilin yaz günlərində 1993-cü ilin payızında kəndlərindən didərgin düşmüş sakinlərin nəhayət ki, geri qayıdışı başladı. İlk köç karvanları Zəngilan rayonunun Ağalı kəndinə oldu. 2022-ci il mayın 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak etdilər.

Kənddə görülən işlərlə yaxından tanış olduqdan və sakinlərlə görüşüb söhbət etdikdən sonra Prezident İlham Əliyev keçmiş məcburi köçkünlər qarşısında çıxış edərək demişdir: "...Biz isə bundan sonra müzəffər xalq kimi yaşayacağıq. Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü bərpa etdik, həm ədaləti bərpa etdik, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq. Bax, həyat qayıdır - Zəngilana, başqa yerlərə, Şuşaya. Yaxşı bilirsiniz ki, bu bölgənin inkişafı üçün nə qədər böyük işlər görülür. İndi yolboyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dördzolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək".

Prezident çıxışı zamanı gələcəkdə görüləcək quruculuq işlərindən də ətraflı söz açmışdır: "Dünən mən Zəngilan şəhərinin baş planı ilə tanış oldum. Hesab edirəm ki, ən gözəl variantı seçdik. Bu sahədə təcrübəsi olan beynəlxalq şirkət baş planı təqdim etdi və mən dedim ki, Zəngilan şəhəri park şəhərinə çevrilməlidir. Yəni Zəngilanın təbiəti o qədər gözəldir ki, biz təbiətə bir zərrə ziyan vurmamalıyıq, əksinə, təbiəti daha da zənginləşdirməliyik, xüsusilə nəzərə alsaq ki, ermənilər Bəsitçay təbii qoruğunu da məhv etmişlər. O məşhur palıd ağaclarını da kəsmişlər, Oxçuçayı da zəhərləmişlər. Vejnəlidə də bizim qızıl yataqlarımızı istismar edərkən heç bir ekoloji normaya riayət etməmişlər. Biz təbiəti qorumalıyıq və Zəngilan şəhərinin artıq dünən baş planı təsdiq olunandan sonra inşaat işləri başlanacaq".

Beləcə, Ağalı kəndinin sakinləri böyük sevinc içində geri döndülər. İllərin üzücü həsrətinə, dözülməz intizarına son qoyuldu. Böyük qayıdış Zəngilandan başladı. Bu başlanğıc, bu dönüş tariximizdə yaddaqalan hadisə oldu.

26 aprel 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən Zəngilanda məscidin təməli qoyuldu. 18 may 2024-cü ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə məscidin açılış mərasimi keçirildi. Bu gün həmin məsciddən müqəddəs amallar uğrunda insanları həmrəyliyə, birliyə çağıran azan səsi yayılır.

### Bərpa və quruculuq işləri sürətlə davam edir

İşğaldan azad olunandan çox keçmədi ki, Zəngilanda Beynəlxalq Hava Limanı da tikildi. Hava limanının təməli 2021-ci il aprelin 26-da Prezident İlham Əliyev tərəfindən qoyuldu. Ərazi Minatəmizləmə Agentliyi tərəfindən minalardan, partlamamış hərbi sursatlardan təmizlənəndən sonra tikinti işlərinə başlanıldı. 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi keçirildi.

Ərazilər minalardan təmizləndikcə genişmiqyaslı bərpa və yenidənqurma işləri daha da sürətləndi. Bu gün Zəngilan rayonunun təkcə Ağalı kəndində deyil, başqa yaşayış məntəqələrində də məcburi köçkünlərin qayıdışı üçün evlər tikilir. Doğma sakinlərin geri dönüşü üçün bölgələrdə böyük quruculuq işləri aparılır, uğurlu layihələr həyata keçirilir.

İşğaldan azad olunmuş ərazilərdə aparılan işləri daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev oktyabrın 3-də Zəngilan rayonuna da səfər edib. Dövlət başçısı "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin, həmçinin "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Sarıqışlaq" Su-Elektrik Stansiyasının açılışlarında iştirak edib.

Həmin gün dövlət başçımız Zəngilan şəhərində beşinci və altıncı yaşayış komplekslərinin təməlini də qoyub.

Prezident İlham Əliyev Zəngilan rayonuna səfəri çərçivəsində şəhərdəki 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olub. Xatırladaq ki, kompleksin təməli 2022-ci il oktyabrın 19-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Dövlət başçısı Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə də tanış olub. Qeyd edək ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Kompleksdəki hotel binasının təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Kompleksin ərazisində üzüm və digər meyvə bağlarının salınması da planlaşdırılır. Müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi hotel kompleksi müasir standartlar səviyyəsində inşa olunur.

Azərbaycan Prezidenti İlham Əliyevin Zəngilanda bünövrəsini qoyduğu bütün yaşayış məntəqələrində və başqa obyektlərdə quruculuq işləri sürətlə davam edir. Quruculuq və bərpa işləri başa çatdıqdan sonra keçmiş köçkünlər böyük sevinc içində doğma ocaqlarına qayıdacaqlar. Burada onlar üçün rahat mənzillər tikmiş dövlətimizə və dövlət başçımıza minnətdarlıq hissi ilə yaşayacaqlar. Əbədi-əzəli torpaqlarına qayıdacaq keçmiş köçkünlər rayonun yenidən qurulması və bərpası prosesində də fəal iştirak edəcəklər. Erməni işğalçılarının uçurub dağıtdıqları, yerlə yeksan etdikləri Zəngilan əvvəlki görkəmindən də gözəl olacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

*Bakı-Zəngilan-Bakı*





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

20-21 oktyabr 2020-ci il

ZƏFƏR gündəliyi

## İlham ƏLİYEV: "Zəngilan şəhəri işğaldan azad edilib"

**20 oktyabr**

**Torpaqlarımızın işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edib.**

Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

### Düşmənin yüksəkrütbəli zabitləri məhv edilib



Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub.

Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri, kapitan Vahab Asetryan da zərərsizləşdirilib.



Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.

Artilleriya bölmələrimiz Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə zərbələr endirib. 246-cı alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Ğazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilib.

### İlham ƏLİYEV: "Düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür"

Prezident İlham Əliyev xalqa müraciət edib.

Müzəffər Azərbaycan Ordusunun döyüş meydanında yeni qələbələr qazandığını söyləyən Ali Baş Komandan vurğulayıb ki, torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görüb.



"Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq" deyən Prezident xoş xəbərlər verərək işğaldan azad edilən növbəti yaşayış məntəqələrinin adlarını açıqlayıb:

Füzuli rayonu: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri.

Cəbrayıl rayonu: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri.

Xocavənd rayonu: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng kəndləri.

Zəngilan rayonu: Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Prezident Vəng kəndinə yeni Azərbaycan adı verib: "Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!"

### Mehriban Əliyeva Zəngilan şəhərinin azadlığı münasibətilə xalqı təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi "İnstaqram" səhifəsində paylaşım edib: "Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

### Gəncə və Goranboy ərazilərində 2 PUA zərərsizləşdirilib

Gün ərzində düşmənə məxsus 2 PUA zərərsizləşdirilib.

Axşam saatlarında Gəncə istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus PUA hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

Saat 19:30 radələrində isə düşmənə məxsus növbəti PUA Goranboy rayonunun Tapqaraqoyunlu kəndi üzərində hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

### Düşmənin muzdlulardan ibarət "Legion" dəstəsi döyüşdən imtina edib

Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində düşmənin 2-ci motoatıcı alayının müdafiə sahəsində bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib.

18-ci motoatıcı diviziyanın müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət "Legion" dəstəsi və ehtiyatdan çağrılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina ediblər. Məlum olub ki, ağır itkilərə məruz qalan bu dəstələr onlara tapşırılmış müdafiə sahələrində tab gətirməyərək kütləvi şəkildə fərarilik ediblər.

Bundan əlavə, düşmənin 10-cu dağatıcı diviziyasının müdafiə zolağına gətirilmiş kəşfiyyat bölüyü də canlı qüvvə baxımından itkilərə məruz qalıb. Şəxsi heyətin üçdəikisini itirən bölmə mövqeləri ataraq geri çəkilməyə məcbur edilib.

**21 oktyabr**

### Düşmənin silah və sursatı qənimət götürülüb



Gecə cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnika üzrə itki verərək geri çəkilməyə məcbur edilib.

5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilib, çoxlu sayda silah və sursat qənimət götürülüb. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborun komandiri taborun şəxsi heyəti ilə birlikdə məhv edilib. 6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar olub. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da olub. Döyüşlərdə 3 ədəd artilleriya qurğusu, bir neçə minaatan, şəxsi heyətlə birlikdə 3 ədəd yük avtomobili sıradan çıxarılıb.

### Tərtər şəhəri yenidən atəşə tutulub

Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Tərtər şəhəri və rayonun ərazisini artilleriya qurğularından atəşə tutub.

### Düşmənə məxsus 4 PUA məhv edilib



Saat 12:00 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus növbəti PUA hava hücumundan müdafiə bölmələrimiz tərəfindən Horadiz istiqamətində məhv edilib.

Saat 12:55-dən 13:30-dək Ermənistan silahlı qüvvələrinə məxsus daha 3 taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan hava hücumundan müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib. PUA-dan ikisi cəbhənin Füzuli istiqamətində, biri isə Tərtər istiqamətində vurulub.

### Prezident xalqa növbəti müjdəli xəbərlər verib



Prezident İlham Əliyev rəsmi "X" səhifəsində xalqa ard-arda müjdəli xəbərlər verib.

Prezidentin ilk paylaşımında qeyd edilib: "Rəşadətli Azərbaycan Ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Ali Baş Komandanın növbəti paylaşımında isə qeyd edilib: "Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### İlham ƏLİYEV: "Status-kvo, təmas xətti mövcud deyil"

Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verib. Dövlət başçısı vurğulayıb ki, artıq vəziyyət dəyişib. Status-kvo, təmas xətti mövcud deyil. Ona görə də indi Ermənistan rəhbərliyi daha da məntiqli davranmalıdır və işğal edilmiş ərazilərin boşaldılmasına sadiq olmalıdır: "Biz onların cəzasını yerində veririk, biz ərazilərimizi azad edirik, demək olar ki, hər gün mən Ermənistanın işğalından azad olunmuş yeni şəhər və kəndləri elan edirəm. Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşir. Buna görə də, əlbəttə ki, onlar daha məntiqli davranmalıdırlar və birmənalı olaraq ərazilərin işğaldan azad edilməsi baş verir. Biz buna sülh danışıqları vasitəsilə nail olmaq istəyirdik. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi və təhrikedici addımlarına görə bu mümkün olmamışdır. Buna görə biz indi döyüş meydanında ərazilərimizi azad edirik".

Prezident həmçinin deyib ki, Ermənistanın "cəsur ordusu" haqqında bütün miflər sadəcə bir növ feyk idi. Çünki bu gün həmin ordu Azərbaycanın igid oğulları qarşısında tab gətirməyərək geri qaçır: "Biz onlara qalib gəlirik və onlar bizim torpaqlardan çıxana kimi bunu etməyə davam edəcəyik".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



## Qəhrəmanlıq salnaməsinin Zəngilan səhifəsi

**2020-ci il oktyabrın 20-si Azərbaycan xalqının yaddaşından silinməyəcək günlərdəndir. Bu günün zəngilanlılar üçün isə ayrıca bir anlamı var. Həmin gün Zəngilan şəhəri düşmən tapdağından azad olunub. Müzəffər Azərbaycan Ordusunun əsgərləri şəhəri qanları, canları bahasına düşməndən azad ediblər.**

Vətənin bir parçası olan Zəngilan şəhərində üçrəngli bayrağımızın dalğalandığı o gün 27 ildən sonra doğma yurdun azad nəfəs almağa başladığı tarixdir. Bu tarix şəhid qanı ilə suvarılmış Zəngilan torpağının cadar-cadar olmuş bağrına can verildiyi gündür. Qisas qiyamətə qalmadı. Hərbi əməliyyatlar "dəmir yumruq" adlı döyüş taktikasının yüksək peşəkarlıqla təşkili və tətbiqi nəticəsində məharətlə yerinə yetirildi. Canını Vətən torpağına sipər edən oğullar igidlik göstərdilər, şücaət nümayiş etdirdilər, Zəngilanı sahiblərinə qaytardılar.

Zəngilanın azad olunması həm də 132 kilometr uzunluğunda Azərbaycan-İran sərhədinin bərpası demək idi. Ali Baş Komandan İlham Əliyev 2020-ci il oktyabrın 20-də xalqa müraciətində demişdi: "İstəyirəm əziz xalqım bilsin ki, hər kəndin, hər yüksəkliyin götürülməsi böyük rəşadət tələb edir. Torpaqlarımızı işğalçılardan qarış-qarış azad edirik. Əziz zəngilanlılar, şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunmasını təmin edib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!"

Ümumiyyətlə, Zəngilan döyüşləri nəticəsində Azərbaycan Ordusu tərəfindən rayon mərkəzi ilə birlikdə 4 qəsəbə və 49 kənd işğaldan azad olunmuşdur. Prezident İlham Əliyevin sərəncamı ilə Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Silahlı Qüvvələrin 6974 hərbi qulluqçusu "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir. Bu şərəfli yolda canlarını fəda etmiş şəhidlərimizi böyük ehtiramla anmaq hər bir Azərbaycan vətəndaşının şərəfli borcudur. Artıq ikinci ildir ki, dövlət başçısının 2023-cü il iyulun 31-də imzaladığı sərəncama əsasən, şəhərin işğaldan azad edildiyi gün Zəngilan Şəhəri Günü kimi qeyd olunur.

Bu gün Zəngilanın işğal zamanı dağıdılmış, tar-mar olmuş həyatına yara vurmuş çox izlər silinib. Ötən dördillik zaman kəsiyində rayonda aparılan bərpa və quruculuq işləri zəngilanlılar üçün böyük lütfdür. Zəfərdən sonra Prezident 12 dəfə rayona səfər edib, orada aparılan yenidənqurma işləri ilə bilavasitə özü tanış olub.

Zəngilan yenidən inşa olunur, kəndlər, qəsəbələr müasir görkəm alır. Azərbaycanda ilk olaraq Ağalı kəndində "ağıllı kənd" konsepsiyası yerinə yetirilib. Burada "ağıllı dövlət" idarəçiliyi, "ağıllı infrastruktur" və xidmətlər, eyni zamanda "ağıllı təsərrüfat" və biznes mühiti yaradılıb, 200 evdən ibarət müasir kənd salınıb. Sonra isə genişləndirilərək əlavə 150 fərdi ev inşa edilib. Bu gün Ağalıda məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, "ASAN", "DOST", kiçik və orta biznesə dəstək xidmətləri fəaliyyət göstərir.

Artıq Zəngilan ölkə və beynəlxalq səviyyəli tədbirlərin keçirilmə məkanına çevrilib. 2023-cü il sentyabrın 29-da BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində təşkil edilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumu Zəngilanda keçirilmişdir. Tədbirdə 53 ölkədən 200-ə yaxın xarici qonaq və ümumilikdə 400 nəfər iştirak etmişdir. Həmçinin 2021-ci il oktyabrın 26-da Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsinin açılış mərasiminə qatılmış, layihə çərçivəsində görülən işlərlə tanış olmuşdur.

Zəngilan indi həm də logistik layihələrin həyata keçirildiyi regiondur. İnşası davam edən Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun böyük strateji əhəmiyyəti var. Bu yol azad edilmiş ərazilərə həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması baxımından ən rahat və sərfəli marşrutdur.

Zəngilanda inşa olunmuş hava limanı isə bölgəni beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün geniş imkanlar yaradıb. Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi 2 il öncə, oktyabrın 20-də baş tutmuşdur. Açılışını Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın etdikləri hava limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyekt olmaqla, Zəngəzur dəhlizinin gücləndirilməsi baxımından da strateji əhəmiyyət kəsb edir. Çünki buradan dəmir və avtomobil yolları da keçəcək, Naxçıvana yol açılacaq. Ümumi uzunluğu 124 kilometr olan Zəngilan-Horadiz avtomobil yolunun inşasının başa çatmasına az qalıb. Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla Azərbaycanın digər rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Füsunkar təbiəti və gözəlliyi ilə seçilən Zəngilanın böyük turizm potensialı var. Zəfərdən sonra regionda bu istiqamətdə də işlər görülür. Rayon özünün təbii ehtiyatlarının zənginliyi ilə də fərqlənir. Hesablamalara görə, Vejnəli kəndindəki yataqda 6,5 ton qızıl, 10,75 ton gümüş, 4 min tona yaxın mis var. Bu sərvətin 27 il ərzində ermənilər tərəfindən talanmasını Azərbaycan iqtisadiyyatına külli miqdarda vurulan ziyan kimi dəyərləndirmək olar. Bu gün isə Vejnəli yatağı Azərbaycan dövlətinə və xalqına məxsusdur.

Vaxtilə Zəngilan işğal olunan sonuncu rayon olsa da, 44 günlük Vətən müharibəsinin 23-cü günü - Cəbrayıl və Füzulidən sonra ilk azad edilən rayonlardandır. Regionun azad olunduğu həmin gün isə Azərbaycan Ordusunun yazdığı qəhrəmanlıq salnaməsinin Zəngilan səhifəsidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*




◆ 20 Oktyabr Energetiklər Günüdür



# Erməni işğalçılarının qoyub getdikləri "mina tarlası"nda azərbaycanlı energetiklər günəş-elektrik stansiyası inşa edirlər

## Bu, fərqimizi ətraf mühitə münasibətdə də göstərir

**Ölkəmizdə mötəbər tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri davam edir. Görülən əsaslı, fundamental işlər isə mütərəqqi beynəlxalq ictimaiyyət tərəfindən təqdir olunur, razılıqla qarşılanır.**

İşğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi hədəfi çərçivəsində Kəlbəcərdə yeni tikilən "Yuxarı Vəng" Su-Elektrik Stansiyası Vətən müharibəsindəki Zəfərimizdən sonra regionda yaradılan ən böyük "yaşıl enerji" mənbəyidir. Təkcə bu SES-də istehsal edilən "yaşıl enerji" növbəti 5 il ərzində Kəlbəcər rayonunun elektrik enerjisinə yaranacaq tələbatını tam ödəyə biləcək. Ümumi gücü 40 meqavat olan "Kəlbəcər" SES silsiləsi Qarabağ və Şərqi Zəngəzurda 42 meqavatlıq "Zəngilan" SES silsiləsindən sonra tikilən ikinci analoji obyektdir. Sözügedən istiqamətdə atılan başqa addım isə ötən il 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının (GES) istifadəyə verilməsidir. Qaradağ GES Xəzər regionunda və Qafqazda ən böyük günəş-elektrik stansiyasıdır.

Qazıntı yanacaqları ilə zənginliyinə və dünyada bu enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq, bərpaolunan enerji mənbələrindən istifadə Azərbaycan üçün hər zaman prioritet məsələlərdəndir. Məhz bu səbəbdən ölkənin enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri bərpaolunan enerji mənbələrindən istifadənin daha da gücləndirilməsi, həmin mənbələr hesabına elektrik enerjisi istehsalı üçün mümkün potensialdan istifadə imkanlarının artırılmasıdır. "Biz 10 ilə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi və daxili bazarda təbii qaz istehlakını azaltmağı planlaşdırırıq" deyən Prezident İlham Əliyev ölkəmizin bu mühüm yolu qət etməyə başladığını və qarşıya qoyulan hədəfə çatmağa iddialı olduğunu dəfələrlə açıqlayıb.

Cari ayın əvvəlində bu sahə ilə bağlı daha bir xoş xəbər yayıldı. Cəbrayılda 240 MVt-lıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikilməsi məqsədilə BP, SOCAR Green və Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) arasında birgə iştirak müqaviləsi imzalandı, layihəyə aid birgə investisiya fəaliyyətini həyata keçirəcək "Şəfəq (Cəbrayıl) Solar Limited" (SJSL) adlı yeni birgə müəssisə yaradıldı. SJSL səhmdarlarının iştirak payları müvafiq şəkildə BP - 50,01, SOCAR - 39,99 və AİŞ - 10 faiz olacaq. Stansiyada illik 500 mln kVt/saat elektrik enerjisinin istehsalı proqnozlaşdırılır. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsində paylaşım etdi: "Layihə birbaşa xarici investisiyaların cəlb edilməsi ilə ölkəmizin "yaşıl keçid" hədəfinin dəstəklənməsinə, Cəbrayıl rayonunun iqtisadi inkişafı və günəş enerjisi potensialından istifadə ilə bölgənin enerji təminatının gücləndirilməsinə, Xəzər dənizi və Səngəçal terminalında karbon emissiyalarının azaldılmasına töhfə verəcək".

Əslində, AR Energetika Nazirliyi ilə BP arasında "Şəfəq" layihəsinin həyata keçirilməsinə dair icra sazişi və ona bir sıra əlavələr hələ xeyli əvvəl razılaşdırılmışdı. Daha dəqiq, 2021-ci il iyunun 3-də Cəbrayıl rayonunda 240 MVt gücündə günəş-elektrik stansiyasının inşası layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi sahəsində əməkdaşlığa dair icra müqaviləsi imzalanmışdı. Müqaviləyə görə, layihəyə investisiya qoyuluşu 200 milyon dollar məbləğində qiymətləndirilmişdir. 21 sentyabr 2023-cü ildə isə SOCAR və AİŞ arasında Cəbrayıl rayonunda (Şərqi Zəngəzur iqtisadi rayonu) "Şəfəq" Günəş-Elektrik Stansiyası layihəsinə qoşulma sazişi bağlanmışdır. Layihənin ətraf mühitə və sosial-iqtisadi sahəyə təsirinin qiymətləndirilməsi sənədi bu il ictimaiyyətə açıqlanmış, müzakirə edilmiş və Azərbaycan hökuməti tərəfindən təsdiqlənmişdir.

Lakin layihənin icrasına başlamasına ermənilərin ərazidə basdırdıqları minalar imkan vermirdi. Bəli, bədnam qonşularımız 30 illik işğal müddəti ərzində ilhaq etdikləri torpaqlarda ölüm toxumları əkmişdilər. Bu azmış kimi, mina xəritələrini verməkdən də imtina edirdilər. Ümid özümüzə qalmışdı. Bununla bağlı jurnalistlərlə söhbətində BP-nin Yaxın Şərq və Xəzər Regionunda Kommunikasiyalar və Xarici Əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli demişdir: "Hazırlıq işləri artıq tamamlanmaq üzrədir. Lap tezliklə Cəbrayıl rayonunda minatəmizləmə işləri başa çatacaq. Artıq yekun investisiya qərarı (FID) ilə əlaqədar texniki və kommersiya aspektləri var və ilin ikinci yarısında təsdiqlənəcək. Bundan sonra GES-in təməlinin qoyulması və tikintisi üzrə işlər başlayacaq".

"Şəfəq" layihəsində virtual enerji ötürmə mexanizmi adlanan yeni kommersiya modelindən ilk dəfə istifadə olunacağı gözlənilir. Bu mexanizm Cəbrayıl rayonunda istehsal olunacaq günəş enerjisinin ölkənin elektrik enerjisi şəbəkəsinin operatoru olan "Azərenerji"yə həmin yerdə çatdırılmasını, "Azərenerji"nin isə sonra eyni həcmdə elektrik enerjisini Səngəçal terminalına ötürməsini təmin edəcək ki, bu da öz növbəsində terminalın həmin bərpaolunan elektrik enerjisindən öz ehtiyacı üçün istifadəsinə şərait yaradacaq.

"Şəfəq" stansiyasının tikintisinin Səngəçal terminalının elektrik enerjisi ilə təminatına, onların istifadə etdiyi qazın isə Avropaya ixracına imkan verəcəyi dövlət başçısı tərəfindən də dəfələrlə bəyan olunmuşdur. Göründüyü kimi, Azərbaycan öz ehtiyacları, qayğıları qədər başqalarını da düşünür, özü də qlobal iqlim dəyişikliyi ilə mübarizə zəminində və ətraf mühitə zərər yetirmədən. Yetər ki, bu səmimi cəhdlər obyektiv qiymətləndirilsin.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

# ARDNF yanvar-sentyabr ayları üzrə gəlir və xərclərini açıqlayıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) bildirir ki, 2024-cü il sentyabr ayının 30-na fondun aktivləri bu ilin əvvəlinə (56 milyard 69,7 milyon dollar) nisbətən 10 faiz artaraq 61 milyard 697,6 milyon dolları təşkil etmişdir.**



Bu ilin yanvar-sentyabr ayları ərzində ARDNF-nin büdcə gəlirləri 15 milyard 4 milyon manat, büdcə xərcləri isə 9 milyard 634,5 milyon manat olmuşdur.

Bu dövrdə ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 9 milyard 424,1 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 8 milyard 641,8 milyon manat, bonus ödənişləri 778,2 milyon manat, tranzit gəlirləri 0,5 milyon manat, akrhesabı ödənişləri 3,6 milyon manat təşkil etmişdir. Fondun vəsaitlərinin idarə olunmasından əldə edilən investisiya gəliri 5 milyard 579,9 milyon manat olmuşdur.

Hesabat dövrü ərzində ARDNF-nin 2024-cü il büdcəsinin icrası çərçivəsində 9 milyard 585,8 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmişdir. Cari ilin yanvar-sentyabr aylarında "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 18 milyon manat, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşməsinə isə 10,8 milyon manat yönəldilmişdir. Sözügedən dövrdə ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 19,9 milyon manat təşkil etmişdir. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəliri hesabat dövrü üzrə 4 milyard 197,6 milyon manat olmuşdur.

Fondun aktivlərinin idarə edilməsindən əldə edilən gəlirlərdə əsas töhfə səhm investisiyalarının payına düşür. İnflyasiyanın sabitləşməsi və iqtisadi artımın dayanıqlı olması fonunda dünyanın aparıcı iqtisadiyyatlarının mərkəzi bankları uçot dərəcələrini aşağı salaraq yumşaq monetar siyasətə doğru keçid etmişlər. Bu siyasət dəyişikliyi sabit gəlirli qiymətli kağızların dəyərinin artmasına və gəlirliliyin yüksəlməsinə səbəb olmuşdur. Yüksək borclanma xərclərinin iqtisadiyyata təzyiqinin azalması ehtimalları investorların davranışına müsbət təsir göstərmişdir ki, bu da öz növbəsində səhm bazarında canlanma ilə nəticələnmiş və əsas səhm indekslərində artımlar müşahidə edilmişdir. Bu, xüsusilə texnologiya və istehlak malları kimi sektorlar üçün faydalı olmuşdur.

*"Azərbaycan"*

# BP Xəzərdə ilk dəfə lay təzyiqi altında süxur nümunələri çıxarıb



**BP Xəzərdə innovativ texnologiyadan istifadə edərək "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarında ilk dəfə olaraq lay təzyiqi şəraitində süxur nümunələri (kern) çıxarılması əməliyyatını uğurla həyata keçirib. Bu həm də BP-nin qlobal miqyasda yerinə yetirdiyi ilk bu cür əməliyyatdır.**

Təzyiq altında süxur nümunəsi çıxarılması texnologiyası süxurun içərisindəki mayelərin kənara axmasını və çıxarılan nümunələrin zədələnməsini minimuma endirməklə süxuru laydakı ilkin vəziyyətində olduğu kimi götürməyə imkan verir.

Çıxarılmış süxur nümunələri müxtəlif laboratoriya yoxlamalarında istifadə olunacaq.

Məqsəd AÇG-nin Balaxanı lay dəstində sulaşdırılmış vəziyyətdə olan süxurların hazırda laylarda qalmış neftlə nə dərəcədə dolmuş olması ilə bağlı qeyri-müəyyənlikləri azaltmaqdır. Bu isə öz növbəsində layın neftvermə əmsalının artırılması metodlarına olan ehtiyac, həmçinin həmin metodların növü barədə məlumat əldə etməyə və Balaxanı lay dəstinin gələcək işlənmə variantlarının müəyyənləşdirilməsini və planlaşdırılmasını təkmilləşdirməyə kömək edəcək.

Təbii lay təzyiqi altında süxur nümunələri Balaxanı VIII layından götürülüb və bu əməliyyat "Qərbi Azəri" platformasında yeni istifadəyə verilmiş bir quyu vasitəsilə həyata keçirilib. Əməliyyat zamanı süxurdakı bütün mayelər olduğu kimi saxlanmaqla və süxurun ilkin vəziyyəti qorunmaqla tam lay təzyiqli dörd kern nümunəsi uğurla çıxarılıb. Bu nümunələr sahənin analizindən əldə edilmiş məlumatlarla birlikdə əlavə təhlil üçün laboratoriyaya göndərilib.

Düşünülür ki, sulaşdırılmış lay süxurundan çıxarılmış nümunələrdən əldə edilən mühüm kern və maye məlumatları laylar haqqında geoloji bilgiləri artıracaq və ehtiyatların ən uyğun işlənmə strategiyalarının seçilməsinə kömək edəcək.

# 142 min pensiya, müavinət və təqaüd proaktiv qaydada təyin olunub

**Bu ilin 9 ayında 142 min pensiya, müavinət və təqaüd təyinatı elektron sistemlər üzərindən proaktiv qaydada həyata keçirilib.**

Onlardan 29 mini pensiya, 113 mini müavinət və təqaüd təyinatları olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu ilin əvvəlindən başlayaraq sosial təminat növləri üzrə ödənişlərin təyinatı elektronlaşdırılıb.

Vətəndaşların sosial təminat növlərinə hüquqları yarandığı halda müraciət olunmadan və sənəd təqdim edilmədən müvafiq sosial ödənişlərin təyinatı e-sistem üzərindən avtomatik şəkildə həyata keçirilir.




# Xarici ticarətin coğrafiyası genişlənir, çeşidi artır

## Azərbaycanın 172 ölkə ilə ticarət əlaqəsi var

**Dünyada baş verən siyasi gərginliklər, mövcud beynəlxalq əhəmiyyətli marşrutlarda yaranan problemlər dünya ticarətinə mənfi təsir göstərməkdə davam edir. İki qütbə bölünmüş dünya güclərinin siyasi ambisiyalarından qaynaqlanan qarşılıqlı sanksiyalar da qlobal ticarətin dinamikasının aşağı düşməsini sürətləndirir.**

Bir çox mütəxəssisin rəyinə görə, bəzən beynəlxalq ticarətdə artım kimi təqdim olunan rəqəmlər, əslində, qiymət artımı ilə bağlıdır. Məsələn, hüsilərin Qırmızı dənizdə ticarət gəmilərinə hücumu yük gəmiləri və tankerləri Avropaya mövcud marşrutu dəyişməklə Afrika qitəsini dolanmaqla üzməyə məcbur edir. Nəticədə daşınan malın hər tonunda qiymət 3-5 dollar bahalaşır ki, bu da real ticarətin artması ilə bağlı deyil.

Azərbaycan dövlətinin apardığı xarici iqtisadi siyasət isə bütün ölkələrlə bərabər hüquqlar çərçivəsində ticarət aparmağa imkan verir. Yəni ölkəmiz Ermənistan xaric bütün dövlətlərlə ticarət aparmaqla iqtisadi gücünə güc qatır. Azərbaycanın ticarət apardığı ölkələrin coğrafiyası da göstərir ki, bizim xarici ticarətdə heç bir problemimiz yoxdur.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-avqust aylarında Azərbaycanda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər dünyanın 172 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişlər. 117 ölkəyə məhsul ixrac edilmiş, 161 ölkədən müxtəlif çeşidli mallar idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla cari ilin yanvar-avqust aylarında xarici ticarət dövriyyəsi 30 milyard 212,3 milyon, o cümlədən ixracın dəyəri 17 milyard 448,4 milyon, idxalın dəyəri 12 milyard 763,9 milyon dollar təşkil etmiş, nəticədə 4 milyard 684,5 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.



Xarici ticarətdə 88,5 faiz payla Avropa ölkələri öndədir. Əsas ticarət partnyorlarımız İtaliya, Türkiyə, Rusiya, Çin, İsrail, Almaniya, Avstraliya, Hindistan, Çexiya, ABŞ, Xorvatiya, Birləşmiş Krallıq, Yunanıstan, Portuqaliya, Bolqarıstan, Gürcüstan, İran, Rumıniya, Ukrayna, Belarus, İsveçrə, Türkmənistan, Tailand və Koreyadır.

Hesabat dövründə idxalda maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, qiymətli və ya azqiymətli daşların, qiymətli metallar və onlardan hazırlanan məmulatların, mineral məhsulları, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, plastik kütlə və ondan hazırlanan məmulatların dəyəri üstünlük təşkil etmişdir. Cari ilin yanvar-avqust aylarında ölkəyə 53006 minik avtomobili, 5465 yük avtomobili, 165 avtobus idxal olunmuşdur. Hesabat dövründə bir çox məhsulun ölkədə istehsalı və ya tələbatın azalması səbəbindən idxalın həcmi azalmışdır.

İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarının, meyvə və tərəvəzlərin, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, pambıq lifi və ipliyinin, alüminium və ondan hazırlanan məmulatların, qara metallar və ondan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, şəkərin, bitki yağlarının payı daha çox olmuşdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Heydər Əliyev Su Anbarının üzərindəki SES-in gücü artırılacaq

**"2006-cı ildə istifadəyə verilən Heydər Əliyev Su Anbarı üzərindəki SES-in kiçik kateqoriyalı stansiya hesab olunmasına baxmayaraq, həmin stansiyanın inşa olunmasını elektroenergetikanın bərpaolunan enerji mənbələri hesabına təmin edilməsi yönündə ilk tarixi addım adlandırmaq olar".**

Bunu "Trend" açıqlamasında Heydər Əliyev Su Anbarı üzərindəki SES-in direktoru Tərxan Qafarov deyib. Bildirib ki, stansiya Naxçıvan MR Nazirlər Kabineti ilə Türkiyə Respublikasının "Cengiz İnşaat AŞ və Aksoy ortaq təşəbbüsü" arasında imzalanmış 19 dekabr 2004-cü il tarixli müqaviləyə əsasən H.Əliyev Su Anbarında tikilib quraşdırılmışdır. Su anbarının tutumu 100 milyon kubmetrdir.

"Stansiyada 2 ədəd hər birinin gücü 2 meqavat və 1 ədəd gücü 0,5 meqavat olan hidroturbinlər qoyulmuşdur. 2006-cı ilin iyul ayında stansiyada sınaq-sazlama işləri yekunlaşdırılmış və enerjisistemə qoşulmuşdur. Stansiyada istehsal olunan enerjini 35 kV-luq "Şahbuz" elektrik verilişi xəttinə qoşmaq üçün qoyulmuş güc transformatorları, paylayıcı quruluşlar Türkiyə Respublikasının, turbin və generatorlar isə Fransa Respublikasının istehsalıdır. Stansiyanın layihəsi, quraşdırılması, sazlanması ilə əlaqədar görülən işlərin dəyəri tamamilə Naxçıvan MR Dövlət Energetika Xidmətinin elektrik enerjisi satışından topladığı vəsait hesabına ödənilmişdir.

Stansiyada il ərzində 7 milyon kilovat-saat enerji istehsal edilir. İstehsalın 12 milyon kilovat-saata çatdırılması nəzərdə tutulur", - deyə o qeyd edib.





# Vətən deyəndə...





● Şəhidlər ölməz, Vətən bölünməz!

## Xatirələrdə yaşayan cəsur kəşfiyyatçı

**Yerişində, duruşunda bir əzəmət, çöhrəsində nuraniyyət, rəftarında ağayanalıq olan şəhid atası Cahan kişinin ürəyi də elə cahan boyda böyükdür. Kövrəkdir, səsi titrəyir, ürəkdən sevinməyi, şadlanmağı unudub. Üzündə ani təbəssüm, gülümsəmək sezərsən ki, bu da yalnız etika, qarşısındakına hörmət üçündür...**



Əvvəllər belə olmasa da, dörd il öncədən - dağ boyda oğlunu itirəndən xeyli dəyişilib, bədbinliyə qapılıb. Amma danışmaq, ünsiyyət qurmaq, dərdləşmək təkcə sözlə deyil ki, həm də gözlədir... Gözlərində dərya dərinliyi, haray, ümid, axtarış, gözlənti var... Fəzailin şəhadətindən sonra, necə deyərlər, vücudunda iki cahanı sığışdırsa da, özü bu cahana sığa bilmir. Ən böyük təsəllisi isə Vətən torpaqlarının düşmən caynağından xilası, əsl sahiblərinə qovuşmasıdır.

Biz Cahan Əliyevlə Zaqatala rayonunun Bəhmətli kəndindəki həyətində görüşüb ötən acılı-şirinli xatirələrə daldıq. Digər oğlu Fərid də söhbətə qoşuldu. Məlum oldu ki, şəhid Fəzail uşaqlıqdan hərbçi peşəsinə böyük maraq göstərib, özü də ən çətin sahədə çalışmağı, kəşfiyyatçı kimi düşmənin içində fəaliyyət göstərməyi arzulayıb. 5 noyabr 1990-cı il təvəllüdlü gələcək zabit kənd orta məktəbinin VIII sinfini bitirərək, 2004-cü ildə sənədlərini C.Naxçıvanski adına Hərbi Liseyə verib. Burada üçillik təhsil aldıqdan sonra 2007-ci ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olunub. 2011-ci ildə isə leytenant rütbəsində Pirəkəşküldə hərbi xidmətə başlayıb. Elə həmin vaxtda da sevib-seçdiyi Əsmər xanımla ailə həyatı qurub. Qızı Xuşi, oğlu Cahid dünyaya gəlib. 2019-cu ildən kapitan rütbəsində Beyləqanın Haramı adlanan ərazisindəki hərbi hissədə qulluğunu davam etdirib, kəşfiyyat xidməti rəisinin müavini vəzifəsinə yüksəlib.

### 14 yaşından hərb sənətinin sirlərinə yiyələnirdi

Cahan kişi deyir ki, Fəzail idmanla məşğul olurdu, dərslərini yaxşı oxuyurdu, xüsusən "Gənclərin ibtidai hərbi hazırlığı" fənninə xüsusi marağı vardı. Məktəbdə keçirilən "Üfüqdə parıltı", "Qartal balası" və sair təlim və yarışmalarda daim fərqlənərdi. Yaşı ötdükcə hərbi sahəyə meylinin ciddi olduğunu



gördük. Artıq yeniyetməlik dövründə torpaqlarımızın işğalda qalması ilə heç cür barışa bilmirdi. Mən və anası hərbçi peşəsinin çətinliyindən söhbət açdıq, amma onun seçiminə mane ola bilmədik. Fəzail 14 yaşından peşəkar şəkildə hərb elminin sirlərinə yiyələnməyə başladı.

F.Əliyev hədsiz zəhmətkeş, prinsipial, əqidəli, seçdiyi yolda əziyyətlərə qatlaşmaqdan çəkinməyən insan olub. Daim öz üzərində işləyər, razılaşmadığı tərəflərini kamilləşdirməyə, məqsədinə, məramına çatmağa çalışardı. Azərbaycandakı hərbi təhsilindən əlavə, müxtəlif xarici ölkələrdə - Türkiyə, Macarıstan, Çexiya, Böyük Britaniyada da təkmilləşdirmə kurslarında iştirak etmiş, bilik və bacarıqlarını artırmışdı. İngilis və erməni dillərini mükəmməl bilirdi.

Söhbətə qoşulan şəhidin qardaşı Fərid Əliyev deyir: "Fəzail çox vətənpərvər idi. Zahirən özünü təmkinli, soyuqqanlı göstərsə də, daxilində bir təlatüm, kükrəyiş vardı. İstəyirdi ki, işğalçıların üzərinə atılsın, müqəddəs torpaqlarımızı azad etsin... Xain ermənilərin cəbhəboyu təxribatları artdıqca savaş yetişirdi. Belə



bir şəraitdə kəşfiyyatın, qarşı tərəf haqqında informasiya toplanmasının böyük əhəmiyyəti var idi. Amma özü bu barədə heç nə danışmazdı. Vətənin əsgəri, zabiti kimi həmişə Ali Baş Komandanın əmrinə müntəzir dayanmışdı. O, kəşfiyyatçı olaraq məxfi şəkildə işlərini görürdü. Əsl həqiqətləri biz sonralar döyüş yoldaşlarından öyrəndik. İgidlərimiz 2016-cı ilin Aprel savaşı, 2020-ci ildəki Tovuz döyüşləri ərəfəsində düşmən hücumlarına layiqincə cavab verdilər. Sentyabrın 27-də döyüşə ilk girən də onlar oldular".

Bildiyimiz kimi, yağı düşmənin ən böyük və keçilməz sədlərindən biri Füzuli rayonunda yerləşirdi. Xain ermənilər öz hesablarında buranı alınmaz sayırdılar. Lakin qəhrəman oğullarımızın cəsarəti qarşısında bir neçə saatın içində işğalçıların xam xəyalları puç və tar-mar oldu. Kapitan Fəzail Əliyevin rəhbərlik etdiyi kəşfiyyat dəstəsi əvvəldən düşmənin daxilinə "sızmış", 30 illik divar, səngər, dotların zəif yerlərini öyrənmiş, üzərlərində lazımi qeydiyyat apardıqları xəritə və "dil" ilə qayıtmışdılar. Bu, açıq döyüşdə canlı qüvvəmizin və texnikamızın mümkün qədər qorunması, az itkilərlə böyük qələbələr demək idi. Özü isə Qaraxanbəylidə gedən savaş zamanı qəhrəmanlıqla vuruşaraq şəhidlik məqamına yüksəldi.

### Son danışıqları sentyabrın 27-də oldu

Cahan kişi bildirir ki, oğlu sonuncu dəfə sentyabrın 27-si saat 19 radələrində evlə telefon əlaqəsi saxlayaraq üstüörtülü şəkildə bəzi mətləbləri çatdırıb: "Səsində bir fərəh, gümrahlıq vardı. Həmişəki kimi çox danışmadı, hal-əhval tutdu, özü barədə narahat olmamağımızı tapşırdı, ailəsini bizə, bizi də Allaha əmanət etdiyini, tezliklə qələbə müjdələri alacağımızı söylədi. İki gün sonra şəhadət xəbəri gəldi..." Cahan kişi özünü saxlaya bilməyib kövrəlir.

Biz Bəhmətlidə olarkən şəhid Fəzailin ailəsi ilə görüşə bilmədik, həyat yoldaşı Əsmər Əliyeva Səbail bələdiyyəsində çalışdığından, övladları paytaxtda təhsil aldıqlarından Bakıda idilər. Əsmər xanımın qəhrəman əri haqqında sosial şəbəkələrdə müsahibələrini, bitib-tükənməyən xatirələrini oxuduq:



"Əgər ikinci dəfə dünyaya gəlsəydim və desəydilər ki, birgə yaşayışınız belə qısa çəkəcək, yenə də Fəzaillə 9 illik ailə həyatını seçərdim. Çünki o, bu qısa müddət ərzində mənə sonrakı ömrümə bəs olacaq qədər xoşbəxtlik, bəxtiyarlıq yaşatdı..."

İgid kəşfiyyatçı kapitanın Vətən və xalq qarşısındakı xidmətləri layiqincə qiymətləndirilib. O, "Qırmızı Bayraq" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Cahan kişi 2022-ci il avqustun 1-də taleyin daha bir acısını dadıb. Ömür-gün yoldaşı da onları əbədi tərk edərək haqqa qovuşub - 58 yaşlı Validə xanım 30 yaşlı şəhid balasının yoxluğuna cəmi 22 ay tab gətirə bilib.

❖ ❖ ❖

Cahan Əliyev kənd təsərrüfatı üzrə təhsil alıb, tütün sortçusu, aqronom, anbardar işləyib. İşlə bağlı müraciətini müsbət cavablandırdığına görə hazırda çalışdığı "Zaqatala AGRO İndusty" MMC-nin direktoru E.Əsədova minnətdarlığını bildirir. Ümumiyyətlə, müəssisə rəhbərliyinin şəhid və qazi ailələrinə xüsusi qayğı ilə yanaşdığı, ehtiram göstərdiyi barədə çoxsaylı faktlar var. Cahan kişinin daha bir arzusu isə Göyəm kənd tam orta məktəbinə oğlunun - şəhid Fəzail Əliyevin adının verilməsidir.

Xatırladaq ki, Zaqatala rayonu Bəhmətli kəndinin 9 şəhidi var. Onlardan 7 nəfər Birinci Qarabağ savaşında, kapitan Əliyev Fəzail Cahan oğlu və əsgər Məmmədov Ümid Bəkir oğlu isə 44 günlük Vətən müharibəsində canlarını qurban veriblər.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

● Tarix yazan oğullar

## Şəhadətindən 54 gün sonra torpağa tapşırıldı

**Vətən uğrunda canlarını quban verənlərə ən böyük ehtiram onların unudulmamaları, daim xaırlanmaları, şücaətlərinin təbliğ olunaraq gənc nəsillərə çatdırılmasıdır. Haqq savaşımızın dördüncü ildönümündə Suraxanı rayonunda yerləşən Şəhidlər xiyabanında da bir izdiham vardı.**





Xətai rayon ictimaiyyətinin nümayəndələri, icra hakimiyyətinin əməkdaşları, qazilər və şəhid ailələrinin üzvləri, Müdafiə Sənayesi Nazirliyi Elmi-Tədqiqat İnstitutunun, 5 saylı Peşə Təhsili Mərkəzinin kollektivləri, şəhidin doğmaları, dostları, cəbhə yoldaşları igid döyüşçü Vüsal Tofiq oğlu Rzayevin əziz xatirəsini anmaq üçün onun müqəddəs məzarının başına toplaşmışdılar. Rayon icra hakimiyyətinin başçısı Rafiq Quliyev, Milli Məclisin deputatı Vüqar Rəhimzadə və digər çıxış edənlər ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin bərpa olunmasında Azərbaycan gənclərinin rolundan, Qarabağda, Şərqi Zəngəzurda həyata keçirilən tikinti-quruculuq işlərindən söhbət açdılar, şəhid Vüsalın şərəfli ömür və döyüş yoluna nəzər saldılar. Şəhidin atası Tofiq Rzayev övladının və digər şəhidlərin Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirən dövlətə, xalqa, şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Xatırladaq ki, Vüsal Rzayev 1996-cı il aprelin 14-də Şabran rayonunda dünyaya göz açıb. Sonradan Rzayevlər ailəsi paytaxta köçüb. Vüsal 2003-cü ildə 5 nömrəli liseydə ibtidai təhsilə başlayıb. Orta məktəb illərində dərsləri ilə yanaşı, idmana da maraq göstərib, güləşlə məşğul olub. 2015-ci ildə Bakı Peşə Liseyini bitirib. Bundan sonra həqiqi hərbi xidmətə çağrılıb. Təlimdə çevikliyinə, fiziki göstəricilərinə görə fərqlənib, baş atıcı vəzifəsində peşəkarlığı, nizam-intizamı ilə seçilib, verilən tapşırıqları vaxtında, dəqiq yerinə yetirib. Ən yüksək mövqe sayılan Koroğlu postunda erməni kəşfiyyatçıların yaxalanıb zərərsizləşdirilməsi məhz onun ayıq-sayıqlığı sayəsində baş tutub. Fəal döyüş qabiliyyətinə görə komandanlığın təşəkkürnamələri və fəxri fərmanı ilə təltiflənib. 2017-ci ilin yanvarına qədərki həmin ilyarımlıq zaman kəsiyi, xüsusən də müzəffər Aprel döyüşlərində iştirakı Vətənə məhəbbət, düşmənə nifrət hissləri daşıyan Vüsalın dünyagörüşündə yeni səhifə açıb, Lələtəpə, Cocuq Mərcanlı və digər strateji məkanların azadlığı sevincini yaşayıb, son və qəti hücuma daha da artan inamla həqiqi hərbi xidmətini Murovda başa vurub.

Vüsal 2020-ci ilin sentyabrında Vətən müharibəsinə könüllü qatılaraq, Füzulinin Kürdmahmudlu kəndində rəşadət göstərib, bir neçə yaşayış məntəqəsini düşmən caynağından xilas edib. Oktyabrın 1-2-də Seyidəhmədli, Alxanlı, Qaraxanbəyli kəndləri istiqamətində qəhrəmanlıqla döyüşüb. Aşağı Seyidəhmədlidəki Betonluq deyilən ərazidə erməni postunun üzərinə hücum zamanı şəhidlik məqamına yüksəlib. Dekabrın 10-da - şəhadətindən 54 gün sonra müqəddəs nəşi tapılaraq dəfn olunub.

Vüsal Rzayevin Vətən qarşısındakı xidmətləri dövlətimiz tərəfindən də layiqincə qiymətləndirilib. O, ərazi bütövlüyümüzün təmini uğrunda döyüş əməliyyatlarında iştirakı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltiflənib.

Vüsalın və digər şəhidlərimizin ən böyük mükafatı isə təbii ki, canları, qanları bahasına düşmən tapdağından qurtulan, azad nəfəs alan, ölkə rəhbərinin qayğısı ilə dirçəldilən, yenidən qurulan Vətən torpaqlarıdır.

***"Azərbaycan"***

## Göz nurunu Vətənə qurban verən kəşfiyyatçının 30 illiyi keçirilib

**O, 1994-cü il oktyabrın 14-də Xızıda dünyaya göz açıb, 2020-ci ilin həmin günü Suqovuşanda Xüsusi Təyinatlı Qüvvələrin tərkibində torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə kəşfiyyat tapşırığını yerinə yetirərkən düşmən mərmisinə tuş gələrək gözlərini itirib.**

Dünyaya gəldiyi gün göz nurunu itirən Kamran Baxşizadə "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Xızı rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi qazisi Kamran Baxşizadənin 30 illiyi münasibətilə keçirilən tədbirdə cəsur kəşfiyyatçının şərəfli döyüş yolundan və vətənpərvərlik nümunəsindən bəhs olunub. Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon üzrə nümayəndəsi Mövsüm Bağırov, YAP Xızı rayon təşkilatının sədr müavini Ümman Rüstəmli, Gözdən Əlillər Cəmiyyətinin prezidenti Səmyar Abdullayev və başqaları Kamran Baxşizadənin həyatı və çətin döyüş yolu barədə danışıblar. Qeyd olunub ki, çətin döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanaraq son dərəcə xoş təsadüf nəticəsində yenidən həyata qayıdıb.



Cəsur kəşfiyyatçının göstərdiyi şücaət və qəhrəmanlıqdan bəhs edən qısametrajlı "Gözümün nuru Vətən" adlı film nümayiş olunub.

Döyüşçünün anası Rəhimə Baxşizadə oğluna göstərilən xüsusi diqqət və qayğıya görə təşəkkürünü bildirib.

Yubiley tədbirinin yekununda fəxri fərmanlar təqdim edilib, şirniyyat süfrəsi açılıb, vətənpərvərlik və qəhrəmanlıq ruhunda mahnılar ifa olunub.

## Azərbaycan Ordusunda kompleks tədbirlər icra edilir

**Azərbaycan Ordusunda 2024-cü ilin hazırlıq planına uyğun olaraq, silah, döyüş və xüsusi texnikanın payız-qış mövsümündə istismar rejiminə keçirilməsi üzrə kompleks tədbirlər icra edilir.**

Müdafiə Nazirliyindən verilən xəbərə görə, hərbi hissələrdə silah və texnikanın payız-qış mövsümündə fasiləsiz və düzgün istismarını təmin etmək məqsədilə bölmələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtkü materialları, həmçinin digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin olunur.

Kompleks tədbirlər çərçivəsində texnikanın yanacaq-sürtkü materialları mövsümə uyğun dəyişdirilir, həmçinin elektrik və hidravlik sistemlərin istismara yararlılığı yoxlanılır.

## Hərbi qulluqçular arasında atletika üzrə yarış

**Quru Qoşunlarının 2024-cü il üçün hazırlıq planına əsasən, hərbi qulluqçular arasında atletika üzrə yarış keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, beynəlxalq qaydalara uyğun olaraq keçirilən yarışda birlik, birləşmə və əlahiddə bölmələrdən 6 komanda üzrə 59 nəfər iştirak edib. Komandalar müxtəlif məsafələrə qaçış, turnikdə dartınma, turnikdə aşaraq dayağa qalxma, eləcə də estafet yarışlarında güclərini sınayıblar.

Yarışa Quru Qoşunlarının fiziki hazırlıq və idman bölməsinin zabitləri hakimlik ediblər. Hərbi qulluqçuların fiziki hazırlıq səviyyələrinin yüksəldilməsi məqsədilə keçirilən yarışın yekununda qaliblərə kubok və medallar təqdim edilib.

## Ordubadda "Şəhidlər unudulanda ölürlər" sənədli filmi nümayiş olunub

**Ordubad rayonunda "Şəhidlər unudulanda ölürlər" sənədli filmi nümayiş etdirilib.**

AZƏRTAC xəbər verir ki, rayon Mədəniyyət Sarayında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclis sədrinin müavini Arzu Abdullayev, Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli, Ali Məclisin deputatları, YAP rayon təşkilatının sədri, icra hakimiyyətinin əməkdaşları, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbər şəxsləri, icra nümayəndələri, şəhidlərin ailə üzvləri, qazilər, müharibə iştirakçıları və rayon ziyalıları iştirak ediblər.

Filmin nümayişindən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.



Sonra Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, kinorejissor Tahir Tahiroviçin ssenari müəllifi olduğu "Şəhidlər unudulanda ölürlər" sənədli filmi nümayiş etdirilib. Filmdə Ordubad şəhidlərinin keçdiyi şərəfli döyüş yolundan bəhs olunur.

## Keçmişdən bu günə

# Milli memarlığımızın nadir nümunəsi

**Dünyada neft Bakısı kimi tanınan paytaxtımız bu gün beynəlxalq aləmdə həm də qədim abidələr, heykəllər şəhəri kimi qəbul olunur. Gündən-günə gözəlləşən Bakıda Şərqlə Qərb arxitektura ənənələrini özündə ehtiva edən, yerli memarlıq abidəsi kimi tanınan qədim binalarda, küçə və meydanlarda, park və xiyabanlarda ziyarətinə minlərlə insanın gəldiyi 42-dən çox heykəl, 11 büst və 9 abidə, neçə-neçə barelyef, muzey, ibadət yeri, saray, malikanə, mülk, habelə göydələn var ki, bunlar da qürur doğurur.**

Xəzərin mirvari boyunbağısı adlandırılan Dənizkənarı bulvarını, bu dənizin sahilində Bakının özü qədər qədim tarixə malik, milli memarlığımızın nadir nümunəsi hesab edilən Qız qalasını görənlər, xüsusən də turistlər, səyyahlar, arxitektor və coğrafiyaşünaslar bu abidəyə heyran qalırlar.

Qız qalası "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində yerləşir. Daşdan hörülmüş nəhəng silindr formasında olan bu abidənin hündürlüyü şimal tərəfdən 28, cənub tərəfdən isə 31 metrdir. Təməl hissədə qala divarlarının qalınlığı 5 metrə, 8-ci mərtəbədən yuxarıda isə 4 metrə çatır. Qala 8 günbəzdən ibarətdir ki, onlar da qalanı 8 mərtəbəyə bölür. Hər mərtəbə yonma daşlarla tikilmiş, günbəz formalı tavanla örtülmüşdür.

Daşla hörülmüş bu tavanların ortasında dairəvi deşiklər vardır. Deşiklər şaquli xətt istiqamətindədir. Belə ki, səkkizinci mərtəbənin tavanının ortasında olan dairəvi deşikdən baxdıqda birinci mərtəbənin döşəməsini görmək mümkündür. Qalaya yeganə giriş yolu onun qərb tərəfindən - 2 metr hündürlükdə və 1 metrdən artıq tağlı qapıdandır. Qız qalasının yuxarıdan görünüşü günəşi və odu bildirən, Azərbaycanda geniş yayılmış "buta" işarəsinə oxşayır.

Qız qalası unikal-konstruktiv quruluşuna görə nəinki Azərbaycanda, eləcə də Yaxın Şərqdə analoqu olmayan bir abidədir.

Bu ilin noyabrında paytaxt Bakı Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsinə evsahibliyi edəcək. Həmin günlərdə minlərlə əcnəbi vətəndaş şəhərimizdə qonaq olarkən istirahət saatlarında Bakının gəzməli, görməli yerlərinə baş çəkəcək. Çox güman ki, onların ilk görmək istədikləri Qız qalası olacaq.

### Qalanın adı əfsanələrlə bağlıdır

Buraya ilk dəfə yolu düşən yerli sakinlərdə də, turistlərdə də çox zaman qalanın adı maraq doğurur. Qalanın adının etimologiyası ilə bağlı mübahisələr indiyə qədər səngimək bilmir. Onun ucaldılma tarixi və mahiyyəti yetərincə müəmmalıdır. Qız qalasının adının mənşəyi çoxsaylı əfsanələrlə bağlıdır. Bəzi müəlliflərin fikrincə, qalanın adı Bakı xanının qızının adı ilə bağlı olduğu üçün Qız qalası adlandırılmışdır. Belə ki, rəvayətə görə, qardaşı (bəzi mənbələrdə hökmdar atası) tərəfindən qalada saxlanılan qız bu əzaba dözməyərək özünü qalanın başından ataraq Xəzər dənizinin sularına qərq etmişdir. Söylənilən digər əfsanələrdən biri də qalanın adının şahın aşiq olduğu və evlənmək üçün qala tikdirməyi ona şərt qoyan bir qıza həsr olunmasıdır. Bir çox tədqiqatçı-alimin fikrincə, bu, gözətçi qalası və yaxud müdafiə istehkamlarının bir hissəsidir, digər tədqiqatçılar onun qədim məbəd, başqaları isə bir növ rəsədxana olduğunu iddia edirlər. Bu fərziyyələrin hər biri çoxlu sayda əsaslı dəlillərə söykənir. Lakin təyinatından asılı olmayaraq tikilinin misilsiz memarlıq abidəsi olması faktı danılmazdır. Məhz bu səbəbdən Qız qalası dövlətimiz tərəfindən dünya əhəmiyyətli abidə kimi mühafizə olunur. 2000-ci ilin dekabrında Qız qalası İçərişəhər və Şirvanşahlar sarayı ilə birlikdə UNESCO-nun Dünya İrs Siyahısına salınıb.

### Memarlıq tarixində Qız qalası ilə müqayisə edilə biləcək abidə yoxdur

Qalanın tikilmə vaxtı ilə bağlı bir sıra fərziyyələr var. Tədqiqatçıların fikrincə, memarlıq tarixində Qız qalası ilə müqayisə edilə biləcək abidə yoxdur. Abidənin yaşının Şumer dövründən başladığını iddia edən mütəxəssislər də var, XII yüzillikdə tikildiyini sübut etməyə çalışanlar da. Burada zaman fərqi tikilmə tarixi bilinməyən başqa abidələrdə olduğu kimi, bir neçə il deyil, hətta bir neçə əsr də deyil, 3000 ildən artıqdır.

Qız qalasının cənub-qərb divarında 14 metr hündürlükdə ərəb dilində qədim kufi xətti ilə yazılmış daş kitabə yerləşdirilmişdir. Yazıda "Qülleyi Məsud ibn Davud" sözləri həkk olunub. Yazı kalliqrafik xüsusiyyətlərinə görə XII əsrə aid edilir. Bəzi alimlər burada qalanı ucaldan memarın adının həkk olunduğunu ehtimal edirlər.

### Prezident İlham Əliyevin tapşırığı ilə qalada bərpa işləri aparılıb

Əsrlər bir-birini əvəzlədikcə Qız qalası təbii proseslərin təsiri nəticəsində zədələnərək ciddi təhlükə ilə üz-üzə qalsa da, bu möhtəşəm abidə tarixin bütün sınaqlarına sinə gərərək ümumilikdə öz ilkin görkəmini və struktur quruluşunu qoruyub saxlaya bilib. Ötən əsrin 60-cı illərində aparılan bərpa işlərindən sonra həmin abidə muzey kimi fəaliyyət göstərib. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb. Maddi-mədəni irsimizə həmişə diqqət və qayğı göstərən Heydər Əliyev Fondunun dəstəyi ilə görülən işlər nəticəsində Qız qalasının təkrarolunmaz görkəmi tam bərpa edilmiş, bu bənzərsiz abidə yenidən istifadəyə verilmişdir.



### Qala daxilində muzey-ekspozisiya

Qalanın daxilində beynəlxalq standartlara uyğun müasir muzey ekspozisiyası yaradılıb. Konservasiya prosesi dövründə abidənin tarixinin və təyinatının öyrənilməsində mühüm rol oynaya biləcək elmi tədqiqatlar aparılıb. Qaladakı pilləkən yenisi ilə əvəz edilib.

Qız qalasının mərtəbələrində xüsusi monitorlarda bu abidənin tarixi, daxili strukturu, tikintisində məqsəd, təyinatı və sair məsələlərlə bağlı fərziyyələr, əfsanələr və digər maraqlı faktlar əks olunub. Ekspozisiyadakı stenddə qədim sənətkarlıq məmulatları barədə məlumat verilir. Hər bir mərtəbədə ekspozisiyaya uyğun işıqlandırma sistemi quraşdırılıb. Burada Qız qalasının müdafiə, istehkam, dini, rəsədxana və digər təyinatı barədə fərziyyələrlə, elmi araşdırmalarla tanış olmaq mümkündür. Monitorlarda Qız qalasının təyinatı barədə film nümayiş etdirilir.

Ekspozisiyada Qız qalasının özünəməxsus və bənzərsiz memarlığı geniş əksini tapıb. Burada orijinal maket qurulub. Maketin üzərindəki monitorda qalanın daxili strukturu barədə müfəssəl məlumat yerləşdirilib.

Köhnə Bakını əks etdirən monitorda şəhərin iqtisadi, gündəlik həyatı, dini və şəhərsalma mövzularına geniş yer ayrılıb. Burada Qız qalası haqqında əfsanələrlə də tanış olmaq mümkündür. Ekspozisiyanın növbəti bölməsində Qız qalasının müdafiə obyekti rolunu oynaması ilə bağlı fərziyyə və elmi araşdırmalardan bəhs edilir. Stenddə qədim silah nümunələri nümayiş olunur. Monitorlarda İçərişəhərin hərbi tarixi və burada baş verən döyüşlər əksini tapıb.

Qalada xüsusilə uşaqların böyük marağına səbəb olacaq "İçərişəhərin müdafiəsi" adlı interaktiv oyun da təqdim edilir.

### "Qədim məbəd" bölməsindəki heliodispley orijinallığı ilə diqqəti cəlb edir

Ekspozisiyada Qız qalasının qədim rəsədxana rolunu oynaması fərziyyəsinə də geniş yer ayrılmışdır. Ümumiyyətlə, bu maddi-mədəniyyət abidəsində həyata keçirilən konservasiya işləri və yeni yaradılan muzey ekspozisiyası bura gələn hər bir kəsdə zəngin təəssürat və xoş ovqat yaradır. Onu da xüsusi qeyd edək ki, milli-mənəvi dəyərlərimizin, maddi-mədəniyyət abidələrimizin qorunub saxlanmasına və təbliğinə həssaslıqla yanaşan Heydər Əliyev Fondu konservasiya tədbirləri zamanı dəstəyini, o cümlədən ekoloji məsələlərin həllinə hərtərəfli köməyini əsirgəməmişdir.

Qız qalası Bakının qədim simvollarındandır. Keçmişlə bu günü qədimliyində və müasirliyində birləşdirən bu gözəl abidə onu ziyarət edənləri həmişə duyğulandırır. Çox güman ki, COP29-un davam etdiyi günlərdə Qız qalasını yerli turistlərlə yanaşı, Bakıya təşrif gətirmiş COP-un iştirakçıları, bir sözlə, xarici vətəndaşlar da məmnunluqla ziyarət edəcəklər.

*Rəhman SALMANLI,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

## Mühəndisləri əvəz edən süni intellekt sistemi




**"Leap 71" şirkəti mühəndis kimi düşünən "Noyron" süni intellekt sistemini təqdim edib. Şirkətin qurucularından Lin Kayser yeni sistemin ənənəvi kompüter dəstəkli dizayn (CAD) proqramlarından çox irəli olduğunu bildirir.**

Parametrik CAD proqramları yalnızca həndəsəyə diqqət yetirir. "Noyron" isə fiziki modelləşdirmə, istehsal prosesləri və mühəndislik məntiqini birləşdirərək dizaynlar yaradır. Hətta o, yalnız bir forma yaratmaqla kifayətlənmir, həm də həmin obyektin real dünyadakı performansını proqnozlaşdırır.

"Noyron" daim özünü təkmilləşdirir. Uğurlu və ya uğursuz olmasından asılı olmayaraq, hər yeni test nəticəsi sistemə geri bildiriş olaraq daxil edilir. Beləliklə də, proqram hər dəfə daha dəqiq nəticələr yaradır.

Süni intellekt sisteminin real dünyadakı potensialını yoxlamaq üçün "Leap 71" komandası Şeffild Universiteti və 3D çap firması AMCM ilə əməkdaşlıq edərək 5 kilonyuton gücündə bir raket mühərriki dizayn edib. O, "Noyron" tərəfindən tamamilə avtonom olaraq dizayn edilmiş ilk raket mühərriki kimi xarakterizə olunur. Mühərrik maye oksigen və kerosin istifadə edir. Bu 2 komponent çox təhlükəli və həssas şəraitdə işləməyi tələb edən yanacaq birləşməsidir. 13 saniyəlik yanma testi mühərrikin sabitliyini və etibarlılığını təsdiq edib.

"Noyron" bir mühəndisin həftələrlə, hətta aylarla çəkə biləcək işini dəqiqələr ərzində başa çatdırır. Sistem ənənəvi CAD proqramlarından tamamilə fərqli şəkildə işləyir. Məsələn, "ChatGPT" kimi süni intellekt sistemləri hər dəfə fərqli nəticələr verə bilər və insan mühəndislərin daimi nəzarətinə ehtiyac duyar. "Noyron" isə bu cür nəzarətə ehtiyac duymur, müdaxilə olmadan bütün prosesi həyata keçirməyi hədəfləyir.

Lin Kayser gələcəkdə mühəndislik sahəsində ümumi məqsədli süni intellekt hazırlamağı hədəflədiklərini qeyd edir. Bu sistem raket hissələrindən istilik dəyişdiricilərinə, təyyarə gövdələrindən bəndlərə və hətta termonüvə mühərriklərinə qədər hər şeyi dizayn edə biləcək qabiliyyətə sahib olacaq. "Leap 71" yalnız aviasiya və kosmos mühəndisliyi deyil, mürəkkəb mühəndislik tələb edən hər cür problemi həll edə biləcək bir süni intellekt yaratmağı qarşısına məqsəd qoyub.

## Məlumatların ötürülməsi zamanı rekord sürətə nail olunub

**London Universitet Kollecinin tədqiqatçıları 6G şəbəkəsini test ediblər. Təcrübi şəbəkə məlumatların rekord sürətlə ötürülməsini təmin edərək aktual 5G şəbəkələrini 5000 dəfə üstələyib.**

Məlumatlar saniyədə 938 Gbit sürətlə ötürülüb. Müqayisə üçün qeyd etmək lazımdır ki, mövcud olan 5G şəbəkələrdə məlumatların ortalama ötürülmə sürəti saniyədə 200 Mbit təşkil edir.

Ötürülmə zamanı əldə edilən yüksək sürət məlumatların elektron və optik ötürülmə üsullarının kombinasiyası sayəsində əldə edilib. Bu cür kombinasiya naqilsiz şəbəkələrin mövcud məhdudiyyətlərini geridə qoymağa imkan verib. Adətən bu cür şəbəkələr radiodalğaları tezliklərin daha dar diapazonunda istifadə edirlər. Lakin bu diapazonların yüklənmiş olmaları ötürülən məlumatın ötürülmə sürətini aşağı salır. Mütəxəssislər isə radio texnologiyalarla optik həlləri birləşdirərək daha geniş diapazondan istifadə ediblər və nəticədə aşağı sürət məhdudiyyətini geridə qoyublar.







## "Ferrari"nin ən güclü avtomobili



**İtalyan brendi "Ferrari" tarixinin ən güclü superkarını təqdim edib. "F80" adlı avtomobil 1200 at gücünə malikdir. O, üç elektrik mühərriki ilə işləyir. Onlardan biri arxada, ikisi isə öndədir. Elektrik stansiyasının arxitekturası "Ferrari 499P"dən götürülüb.**

Onun maksimal sürəti 350 kilometr-saatdır. Avtomobilin aerodinamikasına da böyük diqqət yetirilib. O, güclü arxa diffuzor və aktiv arxa qanadla təchiz edilib.

Yeni superkarın qiyməti təxminən 3,6 milyon avro olacaq. Yeni avtomobildən cəmi 799 ədəd istehsal ediləcək.

## Göz müayinəsi ilə xəstəlikləri müəyyən edən cihaz



**Amerikalı tədqiqatçılardan ibarət araşdırma qrupu xəstəlikləri göz vasitəsilə təyin edən yeni nəsil texnologiya üzərində çalışır. Bu texnologiyanın köməyi ilə bir çox xəstəlik erkən mərhələdə müəyyən ediləcək.**

Komanda 2000-ci illərin əvvəllərindən bəri göz vasitəsilə xəstəlikləri aşkarlaya bilən oftalmoskoplar hazırlayır. Astronomiyada istifadə edilən texnologiyadan ilham alınaraq hazırlanmış bu cihazlar həm atmosferin, həm də gözün optik sisteminin səbəb olduğu təhrifləri aradan qaldıra bilir. Laboratoriyada hazırlanan bu son texnologiyalı oftalmoskoplar insan gözünün arxasını yüksək dəqiqliklə müşahidə edə və qırmızı qan hüceyrələrinin hərəkətini real vaxtda izləyə bilir. Süni intellekt texnologiyasının da işə salınması ilə bu cihazlardan toplanan məlumatların analizi daha sürətli və dəqiq şəkildə həyata keçirilir.

Tədqiqatçılar bildiriblər ki, Alsheymer xəstəliyinin güclü bir retinal damar komponenti olduğuna dair artan sübutlar var. Hazırda bu əlamətləri milyonlarla dollar dəyərində olan böyük PET skanerləri ilə görmək mümkündür. Eyni əlamətləri göz müayinəsi ilə görmək mümkün olsa, bu dəfələrlə ucuz başa gələcək.

## İkiüzlü Günəş pəncərəsi



**Niderlandın Tətbiqi Elmi Tədqiqatlar Təşkilatı tərəfindən koordinasiya edilən tədqiqat qrupu dünyada ilk dəfə olaraq ikiüzlü Günəş enerjisi pəncərəsini hazırlayıb.**

Çoxfunksiyalı pəncərə həm elektrik istehsal edərək təmiz enerji verir, həm də daxili məkanlarda həddindən artıq isinmənin qarşısını alaraq termal və vizual komfort yaradır. Layihə rəhbəri Simona Villanın sözlərinə görə, "ZIEZO" pəncərəsi ikiüzlü kristal silikon Günəş hüceyrə zolaqlarını ehtiva edən unikal izolyasiyalı şüşə vahidindən və inteqrasiya olunmuş jalüz sistemindən ibarətdir. Jalüz istifadə olunduqda Günəş şüalarını hüceyrələrin arxa səthinə yönləndirərək enerji istehsalını artırır.

Sistemin 3 müxtəlif iş rejimi var: jalüz tamamilə bağlandıqda maksimum, açıq saxlanıldıqda isə qismən enerji artımı əldə edilir. İstifadəçilər jalüzü avtomatik tənzimləyərək enerji istehsalı ilə termal və vizual idarəetmə arasında seçim edə bilərlər. Ən çox əks etdirici jalüz istifadə edildikdə günəşli günlərdə anlıq enerji artımı 25 faizə qədər yüksələ bilir. Gündəlik isə bu artım təxminən 13 faiz təşkil edir. Jalüzlərin bucağı, Günəşin mövqeyi və radiasiya şəraiti enerji istehsalında vacib rol oynayır.

"ZIEZO"nun enerji sıxlığı 100 W/m² olaraq ölçülüb və 40 faiz şəffaflıq təmin edir. Simona Villa bu məhsulun rəngli və qeyri-şəffaf Günəş panelləri ilə rəqabət apara biləcəyini vurğulayıb.

## Elektrikli təyyarə nümayiş olunub



**Sıfır emissiyalı, tamamilə elektriklə işləyən "Alice" adlı təyyarə təqdim edilib. Təyyarə 17 metrlik gövdəsində 3,6 tonluq güclü batareya paketi ilə təxminən 815 kilometr sürətə qədər uça bilir.**

9 sərnişin tutumlu "Alice" bir neçə test uçuşu həyata keçirib. O, ilk sınaq uçuşunu 2022-ci ilin sentyabrında Vaşinqton ştatındakı "Grant County" Beynəlxalq Hava Limanından edib. 8 dəqiqəlik uçuş zamanı 3500 fut hündürlüyə çatan "Alice" 2015-ci ildə inkişaf prosesi başlayandan sonra mühüm bir mərhələni geridə qoyub.

İstehsalçı şirkət yeni təyyarə üçün artıq sifarişlər qəbul etməyə başlayıb. Cənubi Floridada yerləşən "UrbanLink Air Mobility" şirkəti artıq "Alice"nin 19 yerlik variantı üçün sifariş verib və gələcəkdə daha 10 təyyarə almaq istəyini bildirib.

Şirkət "Alice"nin sertifikatının 2028-ci ildə tamamlanacağını açıqlayıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## Bazar günü etüdü



# Ömrümüzdən keçən yollar...

**Nə qədər uzun, nə qədər qısa, nə qədər dolanbac olsa da, yollar ömür yollarımız kimi uzandıqca uzanıb gedir. Sanki kəndir kimi Yer üzünün ətrafına dolanır. Yolçular mənzil başına gəlib çatsa da, yollar qurtarmır, sonu görsənmir. Elə bil köhnə yollardan yeni yollar doğulur. Beləcə yollar getdikcə gedir, yeni şəhər və kəndlərdən keçərək ucsuz-bucaqsız düzlərə tərəf istiqamət götürür.**

Yollarsız işlərimiz aşmır, istədiyimiz ünvana gedə bilmirik. Buna görə də tez-tez yollara çıxmalı oluruq. Bütün işlərimiz hara hərlənib-fırlansa da axırda gəlib yollardan keçir. Bəzən yollar bizi uzaqlara, bəzən də yaxınlara aparır. Bəlkə də ömrümüzün ən maraqlı, ən yaddaqalan, ən gözəl günləri yollarda keçir. Yolboyu bir-birindən gözəl mənzərələr, bir-birinə bənzəməyən şəhər və kəndlər görürük. Yollar bizi doğmalarımıza, əzizlərimizə, çoxdan bəri həsrətində olduğumuz müqəddəs məkanlara çatdırır. Bizi həsrətlilərimizə qovuşduranda sanki yolların da üzü gülür. Bəlkə də elə buna görə yolları çox sevirik. Yollar bizim üçün çox müqəddəsdir, çox doğmadır. Yolları bu qədər istədiyimizə görədir ki, onları and yerimizə də çevirmişik. Dilimizə gətirdiyimiz sözün doğruluğunu təsdiq etmək üçün "getdiyimiz bu yol haqqı" deyirik.

Dünyada yollar çox olsa da, bir-birilərindən elə də fərqlənmirlər. Demək olar ki, yolların hamısı eynidir. Bir-birilərinə bənzəməyən bəlkə də onların forma və ölçüləridi, necə deyərlər, boy-buxunlarıdı. Yolların ölçü və formaları haqqında tez-tez belə bənzətmələri də eşidirik. Geniş yollar, darısqal yollar, dolayı yollar, kəsə yollar, uzun yollar, dairəvi yollar, kəsişən yollar, düz yollar, təzə yollar, köhnə yollar... Adları, formaları fərqli olsa da, bizim üçün hamısı eynidir. Onların əsas funksiyası insanları getdikləri ünvanlara rahat çatdırmaqdır. Çatdırırlar da...

Nə qədər üstündən keçib getsək də, yollar yorulmur, yollar incimir. Həmişə qollarını geniş açıb bizi qoynuna alır. Gecəli, gündüzlü nə vaxt qapısını döysək yollar oyaqdır, yolçulara dayaqdır. İnsanları da, onların yüklərini də "çiyinlərində" elə hey daşıyırlar. İllərdən, əsrlərdən bəridir üstündən keçilsə də, yolları heç vaxt yorğun görmürük.

Yollar təkcə bizi qolları üstündə aparmaqla kifayətlənmir. Onlar həm də yola çıxanlara bələdçilik edirlər. Səkilərin üstündə "əllərində" müxtəlif nişanları saxlayaraq gedənlərə, gələnlərə istiqamət göstərirlər. Təkcə istiqamətləri deyil, dayanacaq yerlərini, istirahət ocaqlarını, yeməkxanaları, avtomobillərin təmir olunduğu mərkəzləri, hərəkət zolaqlarını, yaxınlığından keçdiyimiz şəhər və kəndlərin adlarını da insanlara nişan verirlər. Buna görə də gedəcəyimiz ünvanı kimsədən soruşmadan, vaxt itirmədən yolların köməyi ilə sağ-salamat mənzil başına gedib çatırıq. Buna görə yollara minnətdarlıq edə-edə ürəkdolusu "çox sağ olun" deyirik.

Yolboyu gözəl mənzərələr seyr edirik. Yollarda düşünməyə vaxtımız da çox olur. Heç kimə sirr deyil ki, yollar yaradıcı adamlara yeni mövzular da verir, hələ gözəl ovqat da bəxş edir. Bir növ yaradıcılıq düşüncələrinin üstünə işıq salır, güzgü tutur, təzə cığır açır. Bəzən isə ən yaxşı əsərlərin mövzuları da elə yollarda, səfərlərdə tapılır. Buna görə də yaradıcı adamların yol qeydləri həmişə maraqla oxunur. Yollarda baş verən hadisələrdən o qədər maraqlı kitablar yazılıb, o qədər dəyərli filmlər çəkilib ki!

Yollar həm də sanki insanlar üçün imtahan, sınaqdır. Bəzən yollar insanları bərkəboşa da salır, gücünü, səbrini yoxlayır. İnsanların mənfi və müsbət cəhətlərini üzə çıxarır. İnsanlar yollarda tanınır, yollarda dostlaşır, bəzən də yollarda küsüşürlər. Elə buna görə də birindən soruşanda ki, qardaşın necə adamdır? Cavab verir ki, bilmirəm, onunla yol yoldaşı olmamışam. Belə çıxır ki, kiminləsə yol yoldaşı olmayınca, onun xarakterini, xasiyyətini öyrənmək mümkün deyil. Ululardan qalma bu böyük hikmət bizə astaca pıçıldayır ki, kimin necə adam olduğunu öyrənmək istəyirsənsə, onunla yol yoldaşı ol. Görünür, yollar insan ürəyində gizlənmiş bütün sirlərin qıfıllarını açmağa uzanan elə sirli də bir açardır.

Yollar da sanki insanlar kimidi. Bir-biriləri üçün darıxırlar, bir-biriləri ilə qovuşmağa can atırlar. Bəlkə də bu sözə inanmayanlar tapılacaq. Amma səfərə çıxanda görürük ki, dairəvi, dördyol, üçyol və başqa kəsişmələrdə yollar bir-biriləri ilə bağlanırlar. Sanki həm dairəvi, həm də kəsişən başqa yollar onların əbədi görüş yeridi.

Bəzən quldurlar, oğrular yolları kəsir, yolçuları soyub talayır, öldürürlər. Bəşəriyyətə, insanlığa ləkə olan ermənilər kimi. Ermənilər də neçə illər yollarımızı kəsdilər, torpaqlarımızı ələ keçirdilər, soyğunçuluq, oğurluq etdilər, sərvətlərimizi taladılar, insanlarımızı vəhşicəsinə öldürdülər, uzun illər bizi doğma Qarabağımıza həsrət qoydular. Gec də olsa yollarımızı kəsən işğalçılar layiqincə cəzalandırıldı, məhv edildi, diz çökdürüldü. Düşməndən elədiklərinin qisası artıqlaması ilə alındı. Qarabağa və başqa bölgələrə gedən müqəddəs yollarımız geniş açıldı.

Hər gün üstündə addımladığımız, avtomobillərlə gedib-gəldiyimiz yollar ömür yollarımızdan da, həyat yollarımızdan da qırmızı xətlə keçir. Arzulayırıq ki, qoy ömrümüzdən qırmızı xətlə keçən bu yollar həmişə açıq olsun, həyat yollarımız heç vaxt bağlanmasın. Qoy könüldən könülə gedən yollarımızda əbədi olaraq yaşıl işıq yansın. Heç vaxt bu yolları ot basmasın, heç vaxt bu yollara qaranlıq çökməsin...

İnsanların yollara sevgisi, məhəbbəti sonsuzdur. Çünki yollar nə qədər əyri, dolanbac, ziqzaqlı, enişli, yoxuşlu yerlərdən keçsə də, sonda onları mənzil başına vaxtında və rahat aparıb çıxarır. Həm kəsişən, həm də kəsişməyən düz yollar heç vaxt heç kimi yollarda qoymur.

Yollar həmişə qollarını geniş açıb gəlişimizi gözləyir. Biz də təkcə daş, asfalt döşənmiş yolların deyil, həm də insanların qəlblərinə, ürəklərinə doğru uzanan yeni-yeni yaradıcılıq yollarının axtarışındayıq. Bir gün də olsun yaradıcılıq axtarışlarımızdan qalmırıq. Daim axtarışdayıq, daim yollardayıq...

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (**Tel.: (012) 539-59-33**) zəng vura bilərsiniz.*


# Fransa borc içində batır

**Bir həftə əvvəl "Fitch" agentliyi Fransanın kredit reytinqini AA- səviyyəsində təsdiqləsə də, proqnozu "stabil"dən "neqativ"ə endirib. "Moody's" şirkəti qərarını gələn cümə günü, "Standard & Poor's" kompaniyası isə noyabrda verəcək.**

Keçən ay Kanadanın "Morningstar DBRS" agentliyi Fransaya siyasi problemlər barədə xəbərdarlıq edib. Bu barədə Beynəlxalq Fransız Radiosunun (RFI) saytı xəbər verir.

İyulda keçiriləcək növbədənkənar qanunvericilik seçkilərindən sonra yaranan fikir ayrılıqları çox ehtiyac duyulan fiskal islahatları gecikdirə bilər. Güman ki, Fransa 2027-ci il üçün nəzərdə tutduğu kəsir hədəflərinə nail ola bilməyəcək.

Brüsseldə yerləşən Bruegel analitik mərkəzinin iqtisadçısı Andre Sapirin bildirdiyinə görə, yüksək borc səviyyələri ilə birləşən siyasi qeyri-müəyyənlik heç də xoşagələn vəziyyət deyil.

Aİ qaydalarına görə, üzv ölkələr büdcə kəsirini ÜDM-in 3 faizindən, dövlət borcunu isə ÜDM-in 60 faizindən aşağı səviyyədə saxlamalıdır.

2000-ci illərin əvvəllərində Fransa Almaniya ilə müqayisə edilə bilən borc səviyyələri ilə bu sərhədlər daxilində idi. Lakin bir sıra uğursuz siyasət qərarları tədricən dövlət borcunun artmasına səbəb olub.

Artan büdcə kəsiri ilin sonuna qədər ÜDM-in 6 faizini keçə bilər. Milli borcun 3,5 trilyon avroya çatacağı proqnozlaşdırılır ki, bu da Fransanı Aİ-nin müəyyən etdiyi məhdudiyyətlər hüdudlarından xeyli kənarda qoyur.

Ekspertin dediyinə gorə, Paris çətin vəziyyətdədir. Siyasi və iqtisadi qeyri-müəyyənlik investorların xoşuna gəlmir. Onlar bu borcu saxlamağa görə daha çox faiz almaq istəyirlər. Beləliklə, Fransa pis bir dairəyə girir.

Fransanın borcu üzrə faiz ödənişlərinin 2027-ci ilə qədər 70 milyard avroya çatacağı gözlənilir.

Çikaqoda yerləşən maliyyə bazarı CME Group-un baş iqtisadçısı Erik Norland RFI-yə bildirib ki, borclara xidmət xərcləri artdıqda hökumətlər üç seçim qarşısında olur. Onlar kəsir və borcun artmağa davam etməsinə ya icazə verə, vergiləri artıra, yaxud da xərcləri azalda bilərlər.

Lakin bu seçimlər çox cəlbedici deyil, çünki xərclərin azaldılması çox ağrılı ola bilər, xüsusən də əsas xidmətlərə təsir edərsə.

Baş nazir Mişel Barnye bu yaxınlarda xəbərdarlıq edib ki, sərt tədbirlər görülməsə, Fransanın düşdüyü borc tələsi ölkəni bazar spekulyasiyalarına qarşı həssas edəcək.



"Les Echos" qəzetinin yazdığına görə, Fransa gələn il 300 milyard avro orta və uzunmüddətli istiqrazlar alacaq, bununla da əvvəlki 285 milyard avroluq borclanma rekordunu qıracaq. Paris potensial olaraq avrozonada ən iri borcalana çevrilə bilər.

"Kapital" maliyyə jurnalı bildirib ki, yeni borcun böyük hissəsi vaxtı keçmiş kreditləri ödəmək üçün istifadə olunacaq.

Fransa xəzinədarlığı nikbinliyini qorumağa çalışaraq ÜDM-in faizi kimi borc emissiyasının gələn il 10 faiz səviyyəsində qalacağını proqnozlaşdırır - bu, 2024-cü ildəki 9,8 faizdən bir qədər yüksəkdir.

Bununla belə, Fransanın borcunun yarıdan çoxu xarici investorların - bankların və ya pensiya fondları kimi qurumların əlindədir və bu, ölkənin maliyyə sabitliyi ilə bağlı narahatlıq yaradır.




Xarici investorların ən böyük qrupu yaponlardır. Bloomberg-ə görə, onlar iyul ayında Fransanın suveren istiqrazlarını kütləvi şəkildə satıblar və bu, Avropanın ən təhlükəsiz aktivlərindən birinin bəzi ən böyük sahiblərinin gözündə ləkələndiyini göstərir.

Yapon investorları iyul ayında 8,4 milyard avro dəyərində Fransa dövlət istiqrazları satıblar ki, bu da dörd ildən çox müddətdə ən böyük aylıq azalmadır.

Təhlilçilər bunun prezident Emmanuel Makronun sürpriz seçkilər təyin etmək qərarından sonra yaranmış siyasi qeyri-müəyyənliklə bağlı olduğunu deyirlər.

Sapir yapon investorlarının Fransanın kredit qabiliyyətinə şübhə etməyə başladıqlarını bildirib: "Fransa dövlətinin böyük kəsirini aradan qaldırmaq üçün pula ehtiyacı var. Bəs pulu haradan əldə etmək olar? Xərcləri azaltmaqla və gəlirləri artırmaqla. Ancaq gəlirləri artırmaq üçün siyasi məkan varmı?"

Barnyenin baş nazir kimi ilk həftələrində tərtib edilən 2025-ci il büdcəsində kəsiri 5 faizə endirmək məqsədilə xərclərin azaldılması və vergi artımı üçün 60 milyard avro nəzərdə tutulub.

Lakin ifrat sol və ifrat sağçıların müxalifətdə olduqları bir vaxtda büdcə qanun layihəsinin bölünmüş Fransa parlamentindən keçib-keçməyəcəyi hələ də qeyri-müəyyən olaraq qalır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "Sarı gəlinin sorağında" filmi beynəlxalq festivalın xüsusi mükafatına layiq görülüb

**Azərbaycanın "Sarı gəlinin sorağında" sənədli filmi IX Türk Dünyası Sənədli Film Festivalında xüsusi mükafata layiq görülüb.**

Azərbaycan Kinematoqrafçılar İttifaqından AZƏRTAC-a bildirilib ki, mükafat filmin rejissoru Mübariz Nağıyevə təqdim olunub.

Türk dövlətlərindən 300 müraciətin daxil olduğu festivalda Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Şimali Kipr Türk Respublikası, Macarıstan və Şimali Makedoniya iştirak edib. Festivalda on film müxtəlif nominasiyalarda mükafat qazanıb.

Qeyd edək ki, "Sarı gəlin" sənədli filmi Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Qərbi Azərbaycan: "maddi və mədəni irsimiz" layihəsi çərçivəsində Azərbaycan Kinematoqrafçılar İttifaqı tərəfindən 2023-cü ildə çəkilib. Tammetrajlı sənədli filmin süjet xətti "Sarı gəlin" xalq mahnısının mənşəyi, onun yaranma tarixi, bu barədə xalq arasında dolaşan rəvayətlərin, əfsanələrin üzərində qurulsa da, əsas məqsəd Qərbi Azərbaycan ərazisindəki maddi-mədəni irsimizin təbliğidir.



Çəkilişləri Bakı, İsmayıllı, Gədəbəy və Kəlbəcərdə aparılan filmin ssenari müəllifi Füzuli Sabiroğlu, quruluşçu rejissoru Mübariz Nağıyev, quruluşçu operatoru Fahir Səmədoğlu, prodüseri Əli İsa Cabbarovdur. Layihənin rəhbəri Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Rasim Balayevdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi "Bakı Metropoliteni" QSC-nin sabiq rəisi

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, professor-müəllim heyəti və ictimai təşkilatları universitetin Nəqliyyat və logistika kafedrasının sabiq müdiri

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rektoru professor İbad Abbasov və universitetin professor-müəllim heyəti Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Hacı Araz Kərimov, Əli, Mobil, Hacı Müşfiq, Rafiq, Arif və Nail Hüseynovlar, Əlövsət Əliyev, Fazil Allahverdiyev, İlham və Tural İbrahimovlar, İlham Həsənov, Rza, Müstəqim, Mircəfər və Mircəlil İsmayılovlar Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyevə əzizi

**XATIN HAQVERDİ QIZI QURBANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4169**
**Sifariş 2369**

**Qiyməti 60 qəpik**